

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tarix təkrar olunur



7

# Yeni əsrin qlobal layihəsi - "YAŞIL ENERJİ"




2

İLHAM ƏLİYEV: "Biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir"


SƏS

№ 200 (6883)

1 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Makronun Bakı dərdi



5

### ABŞ mətbuatı: Mina problemi olmasaydı, Azərbaycan daha çox ərazini təmizləyib qayıdışı təmin edərdi




3

### Kanadanın ikili standartlara alət olmasının PƏRDƏARXASI




4

### Hamiləlikdə kosmetika: həm təhlükəli, həm zərərli



13

### İnternet ev yıxır, ya ev qurur?



10

### Qəzalı binaların sökülməsi əmlak bazarına necə təsir edir?



16

# Yeni əsrin qlobal layihəsi - “YAŞIL ENERJİ”

## İLHAM ƏLİYEV: "Biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir"

Bu gün artıq Azərbaycanın yüksək səviyyəli mötəbər tədbirlərin məkanına çevrilməsi reallıqdır və bu da dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə, son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzun onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 20 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Belə ki, 2023-cü il 26 oktyabr tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərindən gələn geniş nümayəndə heyətinin iştirakı ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi dediklərimizin təsdiqidir. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır və ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.




Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib ki, bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir: ”Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq”.



Bunun regionun enerji inkişafında tam bir inqilab olacağını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan dünyada ilk dəfə 19-cu əsrin ortalarında neftin istehsal olunduğu ölkədir: ”İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir”.

### SON 20 İLDƏ ENERGETİKA SEKTORUNDA APARILAN SİYASƏT AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

Uğurla həyata keçirilən enerji siyasəti nəticəsində Azərbaycan dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında önəmli aktorlardan birinə çevrilib. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin. Xüsusilə də, dünyada cərəyan edən proseslər fonunda Avropa ölkələrinin Azərbaycanın enerji ehtiyatlarına olan marağı daha da artıb. Bu isə Azərbaycanın müəllifi olduğu layihələrin əhəmiyyətini daha da artırıb. Bütün bunlar əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən enerji siyasətinin uğurlu nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu inkişafının və əldə olunan qələbələrin arxasında böyük işlər və ağır zəhmət dayanır. Xüsusilə də, Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadə etmək məqsədilə reallığa çevirdiyi enerji layihələri etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Bu layihələr dünyanın enerji təhlükəsizliyinin təminatında öz sözünü deyir. Regional çərçivədə başlayan əməkdaşlıq əlaqələrinin coğrafiyasının genişlənməsi fonunda ölkəmizin bu rolu daha da artır.

### ”QARADAĞ” STANSİYASININ İSTİFADƏYƏ VERİLMƏSİ ”YAŞIL ENERJİ” HƏDƏFLƏRİMİZƏ DOĞRU İNAMLI ADDIMDIR

Azərbaycanın yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması getdikcə daha da möhkəmlənir. Həm də yeni-yeni sahələri əhatə edir. Son illər bərpaolunan enerji sahəsinin inkişafı istiqamətində atılan addımlar buna əyani misaldır. Göründüyü kimi, Prezident İlham Əliyev ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasının - ”Qaradağ” Günəş-Elektrik Stansiyasının açılışını da etdi.



Xatırladaq ki, hələ bu il yanvarın 15-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ”Masdar” arasında ölkəmizdə 2 QVt gücündə Dənizdə Külək və Hidrogen layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi imzalanmışdır.

Bu günlərdə, ”Qaradağ” stansiyasının açılışından sonra isə ”Azərbaycan Respublikası Hökuməti ilə ”Abu Dhabi Future Energy Company - ”Masdar” şirkəti arasında Neftçala rayonunun Bankə qəsəbəsində və Biləsuvar rayonunda günəş-elektrik stansiyaları, Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı investisiya müqavilələri imzalanması baş tutdu. Azərbaycandakı layihələrə Birləşmiş Ərəb Əmirlikləri də böyük önəm verir. BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ”Qaradağ” stansiyasının açılışındakı çıxışında bunu belə ifadə edib: ”Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir ”Masdar”ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksəksəviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsinlər. Bu, həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir. Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, ”yaşıl iqtisadi artım” üçün strateji addım idi. Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən iyirmi il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə ”Masdar” kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. Bildiyiniz kimi, ”Masdar” dünyanın aparıcı, məhz bərpaolunan enerji şirkətinə çevrilmişdir. Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir”.

*Ardı Səh. 3*

# Yeni əsrin qlobal layihəsi - "YAŞIL ENERJİ"

İLHAM ƏLİYEV: "Biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir"



Əvvəli Səh. 2

Bəli, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir.

## "ÜMUMİYYƏTLƏ, QARABAĞ, ŞƏRQİ ZƏNGƏZUR VƏ NAXÇIVAN ARTIQ YAŞIL ENERJİ ZONASI KİMİ ELAN OLUNUB"

Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə bərpaolunan enerjinin əldə olunması üçün əlverişli mühit yaranıb. Qarabağda günəş, külək enerjisi növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq işğaldan azad edilmiş ərazilər, yəni, 10 min kvadratkilometr ərazi "yaşıl enerji" zonası elan olunub.

Prezident İlham Əliyevin sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılıb. Azərbaycanın inkişaf strategiyasında Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi mühüm əhəmiyyət kəsb edir. Ötən il işğaldan azad edilmiş ərazilərdə ümumi generasiya gücü 20 meqavat olan 4 su-elektrik stansiyası bərpa edilib. Bu il isə 5 su-elektrik stansiyasının yenidən qurulması planlaşdırılır. Bu stansiyaların generasiya gücü 27 meqavat olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarının istismara verildiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq: "Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub".

Bəli, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun relyefi, külək, günəş, su ehtiyatları imkan verir ki, Azərbaycan öz təbii sərvətləri hesabına bərpaolunan və "yaşıl enerji" zonası yaratsın. Qeyd edək ki, bu istiqamətdə çox böyük layihələr hazırlanır və icra edilir. Azərbaycan öz təbii sərvətlərinin həcminə və həm də etibarlılığına görə Avropanın enerji körpüsünə çevrilir.

İqtisadi gücü və yeni texnologiyaların tətbiqi sayəsində respublikamız enerji idxalçısından etibarlı ixracatçı ölkə kimi dünyanın diqqətini cəlb edir. Dövlət başçımızın söylədiyi kimi, Qarabağ və Şərqi Zəngəzur "Yaşıl Enerji Zonası" elan edilib, təbii ki, bu da qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsuludur. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında dəfələrlə bu ərazilərin enerji təminatında bərpaolunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə qəti mövqe ifadə edərək bildirib ki, azad edilmiş ərazilər "yaşıl enerji" zonasına çevriləcək.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində daha çox müşahidə olunur. Hər iki bölgədə mövcud olan Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas və digər kiçik çaylar böyük hidroenerji potensialına malikdir. Həmçinin, ilkin təhlillərə əsasən Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda da ekoloji cəhətdən təmiz alternativ (bərpaolunan) enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. 2022-ci il mayın 3-də Prezidentimiz İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" çox mühüm sərəncam bu gün uğurla icra olunur.

Prezident İlham Əliyev öz çıxışında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə imzalanmış müqavilə əsasında inşa edilmiş elektrik stansiyasının təməlinin keçən ilin mart ayında qoyulduğunu xatırlatdı və Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrilməsinin qürurverici hal olduğunu vurğuladı: "Və ölkəmizin yaşıl enerji sahəsində gələcək planları barədə yer almış açıqlamaların əhəmiyyətini vurğulayaraq deyib: "Ötən ilin martında biz Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edirdik. İndicə göstərilən video həmin tariximizin əlamətdar anını nümayiş etdirdi. Əminəm ki, bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır. Bu gün biz nisbətən qısa zamanda - təxminən ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir".

Bir sözlə, dövlətimizin başçısı məhz bu reallıqlara söykənərək belə bir əminliyi ifadə etdi ki, müstəqillik tariximiz təkcə enerji deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Bu stansiyanın işə düşməsi həm elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına, həm də qaz resurslarına qənaət olunmasına şərait yaradacaq, eyni zamanda atmosferə karbon emissiyasının atılmasının qarşısını alacaq. Bu, işğaldan azad olunmuş ərazilərdə iqtisadi reinteqarasiyanın daha sürətli keçirilməsi üçün də vacibdir. Dövlət başçımızın söylədiyi kimi: "Beləliklə, bunlar bizim planlarımızdır və müstəqillik tariximiz bizim təkcə enerji sahəsində deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Çünki bizim siyasi iradəmiz var, bizim cəmiyyətdə birlik var".

***RƏFİQƏ KAMALQIZI***

# ABŞ mətbuatı: Mina problemi olmasaydı, Azərbaycan daha çox ərazini təmizləyib qayıdışı təmin edərdi

Cari il sentyabrın 19-da ermənilərin basdırdıqları mina partlayışlarında həlak olan 6 nəfər haqqında danışan, habelə Ermənistanı mina xəritələrini verməyə çağıran sərt bəyanatları görmürük. Ermənistanın təqdim etdiyi xəritələrin yalnız 25 faizi dəqiqdir və insan itkisi riski yüksək olduğundan, bu xəritələrə etibar etmək olmur. Bu azmış kimi, bəzi beynəlxalq ekspertlər Azərbaycan ərazisinin minalardan təmizlənməsinin uzun illər çəkəcəyini proqnozlaşdırır. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu barədə tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham ABŞ-ın populyar "Frontpage Magazine" qəzetində dərc olunmuş məqaləsində yazıb.

Bir sıra beynəlxalq siyasi ekspertlərin fikirlərinin yer aldığı "Niyə indi minaları qadağan etməliyik?" sərlövhəli məqalə diqqətə çatdırılıb ki, ermənilərin basdırdıqları minalarla bağlı problem olmasaydı, Azərbaycan tərəfi daha çox ərazini təmizləyib məcburi köçkünlərin öz evlərinə qayıdışını təmin etmiş olardı.



**Why We Must Ban Landmines Now**

From Kashmir to the Ukraine to Nigeria to Karabakh. It's time to make the decision.

October 25, 2023 by Rachel Avraham — 14 Comments

Newsletter

Listen to this article n...

00:00 07:04

Recently, an Indian soldier was injured in a landmine explosion in the disputed Kashmir region. While this time the victim was a soldier, the victim could just as easily have been civilian. Human Rights Watch noted, "Antipersonnel landmines are weapons that cannot discriminate between a civilian or a soldier. They are designed to be exploded by the presence, proximity, or contact of a person. The 1997 Mine Ban Treaty comprehensively bans the use, production, stockpiling, and transfer of antipersonnel mines, and requires states to destroy their stockpiles and clear all mined areas as well as assist landmine survivors. A total of 164 states have joined the Mine Ban Treaty and are making progress in achieving a mine-free world."

However, many countries including Russia, Pakistan, Armenia, etc. continue to use landmines in spite of this. According to the International Campaign to Ban Landmines, "Antipersonnel mines are indiscriminate and inhumane weapons and therefore violate the basic

Eyni zamanda, vurğulanıb ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 30 ilə yaxın davam etmiş işğalı nəticəsində ölkəmizin ərazisi kütləvi şəkildə mina və müharibə qalıqları ilə çirkləndirilib. Belə ki, ANAMA-nın statistik məlumatına əsasən, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan indiyədək 189 mina partlayışı baş verib, 2023-cü il sentyabrın 28-dək bu partlayışlar nəticəsində 327 nəfər həlak olub və ya yaralanıb.

İsrailli politoloq bu mənada qeyd olunan problemi işıqlandıran statistikaların mina problemini həll etmək və günahsız insanların həyatını qorumaq üçün təcili tədbirlərin görülməsinə ehtiyac duyulduğuna dair həyəcan siqnalı verib.

Qeyd olunub ki, Azərbaycan tərəfi minaların tələ kimi qoyulduğunu əks etdirən videolar yayımlayıb. Belə ki, Xankəndidə yanacaqdoldurma məntəqəsində baş vermiş məlum partlayışdan sonra Azərbaycan hakimiyyəti Qarabağın erməni sakinlərinə yardım göstərmək məqsədilə humanitar yardım və yanğınsöndürənlər göndərib.

Sonda müəllif insan haqları təşkilatlarının Azərbaycanı haqsız yerə tənqid atəşinə tutan çoxsaylı bəyanatları fonunda minalarla əlaqədar Ermənistanı qınayan bir bəyanatın belə mövcud olmamasını qərəzliliyin və ikili standartların aşkar təzahürü kimi qiymətləndirib.



# YAP Təftiş Komissiyasının iclası keçirilib

**Oktyabrın 31-də Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.**

İclasda partiyanın Sumqayıt, Naftalan, Mingəçevir şəhər, Göygöl, Oğuz, Qax, Samux, Şəki, Balakən, Kəlbəcər, Qəbələ, Xızı, Zaqatala, Kürdəmir, Ucar, Cəlilabad, Daşkəsən, Şuşa, Astara, Qazax və Qobustan rayon təşkilatları aparatlarında aparılmış nəzarət-təftiş tədbirlərinin yekunları və cari məsələlər müzakirə olunub.

YAP Təftiş Komissiyasının üzvləri gündəlikdə duran məsələlərə münasibət bildiriblər. Müzakirələrdən sonra gündəliyə çıxarılan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Kanadanın ikili standartlara alət olmasının

# PƏRDƏARXASI

**Ermənistanın qondarma və dırnaqarası "demokratiyasını" dəstəklədiyini bayağı şəkildə nümayiş etdirmək istəyən Kanada diplomatiyasının rəhbəri Melani Coli, həm də erməni sevgisini, ermənipərəstliyini açıq-aşkar formada ortaya qoyub və hətta bir çoxlarına göstərmək üçün, sadiq nökər olduğuna kimlərisə inandırmaq üçün bunu, nümayişkarana şəkildə edib. Ermənistanda olarkən ifrat dərəcədə bayağı davranan Coli özünü "öz ailəsində" olmuş kimi göstərməklə, təkcə kanadalı kimi yox, həm fransalı biri kimi davranıb, həm də ABŞ kimi bir güclü dövlətin marioneti olduğunu təsdiqləyib və sanki bunları etiraf edib.**

"Kanada Ermənistan xalqının yanındadır, onun suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir", deyən Kanadanın Xarici İşlər Nazirliyinin rəhbəri işğalçı ölkəyə nəzərdə tutulan yardımın artırılacağını da bəyan edib. Onun sözlərinə görə, Azərbaycanın Qarabağ iqtisadi rayonunu tərk etmək qərarına gələn ermənilərə, əvvəl elan edilmiş 1,3 milyon dollar yox, artıq 3,9 milyon dollar məbləğində yardım ediləcək. Nə səbəbə artırıldığı, elan edilən məbləğin nə səbəbə artdığı barədə sualı xanım Coli açıq qoyub və bu barədə bir kəlmə də deməyib, amma hər halda maraqlı və diqqət çəkən məqamdır. "Bu gün söz verdiyimiz kimi, Ermənistanda səfirlik açırıq, çünki bizim Ermənistanda olmağımız çox vacibdir", deməklə, Coli onu nəzərə çatdırmaq istəyib ki, Kanada bundan sonra Ermənistanda daha aktiv şəkildə proseslərdə iştirak etmək, daha doğrusu, bölgəyə burnunu soxmaq niyyətindədir. Bu niyyətini də, məhz ABŞ və eləcə də Fransa başda olmaqla, bütün Avropaya eşitdirmək üçün Melani Çoli İrəvanda bu şəkildə "canfəşanlıq" edib.

"Azərbaycana qarşı sanksiyalar məsələsi müzakirə olunur. Eyni zamanda biz Ermənistanın ərazi bütövlüyünə hörmətlə yanaşılacağını gözləyirik, bu, bizim üçün dogmadır və biz bunu diqqətlə izləyirik", deyən Kanadanın XİN rəhbəri kimlərə isə daha xoş gəlmək üçün, onların daha çox diqqətini cəlb etmək üçün dediklərinin, yəni müvafiq auditoriyaya hesablanan çıxışının sonunda Azərbaycana qarşı iqtisadi sanksiyaların tətbiqi ilə bağlı da vədlər verib. Maraqlıdır, yaltaqlanmaq və özünü göstərmək üçün bir diplomatın ağlına gələni danışması, ələlxüsus da heç bir əsas olmadan sanksiya tətbiqi barədə sayıqlaması Qərb tərəfindən, yaxud Avropa tərəfindən qəbul olunandır, yoxsa Melani Colinin timsalında yaltaqlara belə bir icazə verilib? Amma, son hadisələri, ələlxüsus ölkəmizlə təhdid dili ilə danışmağı özünə rəva bilən Ermənistanın aqibətini müşahidə edən hər biri ayrı-ayrılıqda bilməlidir ki, Azərbaycanla təhdid dilində danışmaq olmaz və bu şəkildə davranış ölkəmiz üçün ümumiyyətlə qəbul edilən deyil. Azərbaycana qarşı sanksiyaların tətbiqini istisna etməyən Kanada Xarici İşlər Nazirliyinin rəhbərini təhdid dilində danışmaqdan çəkinməyə çağıran, bunun son dərəcə yanlışlıq olduğunu və heç bir tərəfə uğur gətirməyəcəyni öz bəyanatında xatırladan rəsmi Bakı əslində, sanksiya tələbi və təhdid dili ilə danışan, yaxud danışmaq istəyənlərin hamısına kəsərli bir mesaj vermiş olub.

Sözsüz ki, həqiqətə uyğun olmayan, eləcə də milli maraqlarımıza zidd olan bu cür çıxışlara Azərbaycan tərəfi layiqincə cavab verir və bu dəfə də kanadalı yaltaq və ikiüzlü öz cavabını alıb. Rəsmi Bakı Kanadanın xarici işlər naziri Melani Colini haqlı olaraq, qərəzli mövqedə ittiham edib və onu təxribat xarakterli çıxışlardan əl çəkməyə çağırıb. Əlbəttə, bu çağırışla həm də Coliyə başa salınır ki, onun belə bir şəkildə çıxışı Ermənistan tərəfini "ruhlandırmaqla" təxribatlara rəvac verir. Bununla təkcə Coliyə yox, elə Kanadaya da, bu ölkəni təhrik edən Fransaya da, həmçinin ABŞ kimi özünü demokratiyanın beşiyi adlandıran ölkəyə də lazımi mesajlar verilir. Azərbaycan Xarici İşlər Nazirliyi öz bəyanatında qeyd edir ki, Colinin regiondakı əsl vəziyyəti bilmədən nümayiş etdirdiyi qərəzli mövqe tamamilə əsassızdır. Yəni, əslində bu, təkcə Kanadanın yox, bütövlükdə digərlər ermənipərəstlərin də ünvanına səslənən bəyanatdır və heç şübhəsiz ki, hər biri də bundan öz payını layiqincə götürmüş olur.

Melani Colinin İrəvana səfəri və səfər çərçivəsində nümayiş etdirdiyi mövqeyi əlbəttə ki, bir sıra suallar doğurur. Maraqlıdır, dünyanın əks qütbündə yerləşən Kanada birdən-birə, amma məhz Fransanın ardınca nəyə görə açıq şəkildə ermənipərəst mövqe tutmaq qərarına gəldi və nə səbəbdən bunu da bir başqası yox, həmin ölkənin XİN rəhbəri utanmadan nümayiş etdirməli oldu? Görəsən, rəsmi Ottava üçün bu mövqe nəyə lazım idi və bundan nə kimi fayda görə bilər axı? Məsələ burasındadır ki, Ermənistanla Kanada arasında nə coğrafi baxımdan, nə də iqtisadi baxımdan yaxınlıqdan danışmaq olmaz və regiona aid olmayan bir ölkənin qəflətən burnunu regiona soxması tamamilə mənqitsizdir və diqqəti də cəlb etməyə bilməz. Bu suallar və diqqət çəkən məqamlar həqiqətin izinə düşmək imkanı verir və məlum olur ki, əvvələ, fransız əsilli kanadalı xarici işlər naziri Coli Kanadadakı erməni diasporu ilə yaxın münasibətdədir və məhz buna görə onu "qabağa salıblar", yaxud özü "qabağa düşüb" Ermənistana gəlib.




Məlumdur ki, liberal siyasət aparan Ottava Ukraynanı dəstəkləməkdə çox israrlıdır. O da məlumdur ki, 2020-ci ildə müharibə zamanı Bayraktarlar üçün optik qurğular məsələsi ilə bağlı Kanadanın Türkiyə ilə mübahisəsi var idi. Kanadanın Harris müdafiə şirkətinin optik cihazlarından Azərbaycanın istifadə etməsindən Kanada narazı idi və açıq şəkildə də bildirilirdi ki, bu cür cihazların istifadəsi Kanadanın xarici siyasəti və Türkiyənin onları üçüncü şəxslərə verməmək zəmanəti ilə bir araya sığmır. Ancaq buna baxmayaraq indi Kanada Ukraynada eyni Bayraktarlardan istifadə etmək əleyhinə qətiyyən mövqe bildirmir və ikili standart, ikiüzlülük bu ölkə üçün də qəbulolunan hesab edilir. Deməli, Kanada və onun XİN rəhbəri hansısa ölkənin, hətta bir sıra ölkələrin marioneti rolunda çıxış etməklə, elə onların özləri kimi də ikili standartları, ikiüzlülüyü qəbul etmiş olduğunu göstərir. Amma bütün bunlar ən çox da onu göstərir ki, Kanada şəksiz-şübhəsiz ABŞ və Fransanın tapşırığı ilə ortaya atılıb və bunu təsdiq edən məqamlar kifayət qədərdir.

Qafqazda regional təhlükəsizlikdə Kanadanın özünü daha bir dominant qüvvəyə çevirməyə çalışması, ən azından bu ölkənin etdiyi cəhdlər həqiqətən də təəccüblüdür. Məhz elə təəccüblü olması da bir sıra məqamların aydınlaşdırılması üçün kifayət qədər əsas verir. Bütün bunların, cərəyan edənlərin fonunda dərhal belli olur ki, Paris xarici siyasət müttəfiqlərindən biri olan Ottavanı Cənubi Qafqazdakı maraq dairəsinə daxil edib və bu ölkəni məcbur edib ki, özünü İrəvanın digər müdafiəçisi kimi göstərsin. Görünür, regionda mövqe tutmaq üçün nə qədər çalışsa da, tək özü bacarmadığını dərk edən, hətta bunu qəbul edən, etiraf edən Fransa indi Kanadanı da regiona burun soxmaq üçün təhrik edir və məqsədi də aydındır. Aydın olan odur ki, Ottavanı öz təsiri altına alan Paris onu regiona təhrik etməklə, dominantlığı öz üzərinə götürmək niyyəti güdür və bu oyunda Kanada da, onun XİN rəhbəri də məmuniyyətlə alət olmağa razıdır. Ermənistan da öz növbəsində razıdır ki, Qərbin, Frankofoniya dövlətlərinin nümayəndələrini regiona "bağlasın", onların geosiyasi missiyalarının həyata keçiriləcəyi özəyə çevrilsin. Qərbin regional təhlükəsizlik bəhanəsi ilə Cənubi Qafqaza soxulmaq niyyətinin, məhz Ermənistanın tamamlayıcı xarici siyasət kontekstilə uyğunluğu onu deməyə əsas verir ki, rəsmi İrəvan hansısa tarazlıq yaratmaq fikrindədir və buna nail olmaq üçün şeytanın özünün də regiona burun soxmasına razıdır, amma Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda bunun mənasız olduğunu dərk etmir.

Kanada nə Qarabağda, nə də Cənubi Qafqazda baş verənlərdən xəbərdar olan ölkə kimi görünmür və sanki xanım Coli ona verilən hazır mətni İrəvanda üzündən oxuyur. Əks halda, bu ölkənin XİN rəhbəri Qarabağdan könüllü şəkildə çıxan ermənilərə görə Azərbaycanı dırnaqarası "etnik təmizləmədə" ittiham etməzdi. Əgər həqiqətən də Qarabağda, Cənubi Qafqazda baş verənlərdən xəbərdar olaraq belə ittihamlarla çıxış edirsə, deməli özü barədə də, ölkəsi barədə də ictimai fikirdə belə narazılığı yaratmaqdan çəkinmir. Əslində, "yer altı məzarlıq" adlandırıla biləcək bir ölkənin, yəni Kanadanın və onun diplomatının hansısa ölkəni ittiham etməsi hədsiz dərəcədə gülünc səslənir. BMT nümayəndələri belə təkzib etdikdən sonra bu ölkənin XİN rəhbəri hansı haqla ittihamla çıxış edir? "Bizim məqsədimiz Kanadada tək bir hindli qalmayana qədər davam etməkdir", deyə bəyan edən məhz Kanadanın məşhur dövlət xadimlərindən olan Duncan Campbell Scott deyildimi və bunun fonunda həmin o "yer altı məzarlıq" adlandırılan, müstəmləkəçilik siyasəti altında həyata keçirdiyi soyqırımların 500 ildən artıq tarixi olan ölkənin diplomatı nə üzlə rəsmi Bakıya qarşı hansısa ittiham irəli sürə bilir? Keçmiş internat məktəblərinin birində yerli xalqların aclıq, zorakılıq, yanğın səbəbindən tələf olan 215 uşağının cəsəd qalıqlarının 2021-ci ildə tapılması ilə bütün dünyada ifşa olunan Kanada öz diplomatının dili ilə kimi ittiham və mühakimə etməyi özünə rəva bilib, Azərbaycanımı?

Heç bir zorakılığa, soyqırıma yol verməyən, vətəndaşlıq və reinteqrasiya təklifi edərək, öz ərazilərində bu zamana qədər məskunlaşan erməni əsillilərə təhlükəsizliklərinin təminatı vədi verən Azərbaycanı həmin o ifşa olunan ölkə diplomatının mühakimə etməsi çox böyük bir ikrah doğurur. Çünki bu ölkənin məhz ABŞ-ın aləti olaraq çıxış etməsi, Vaşinqtonun əmri qarşısında Ottavanın acizliyi, marionetliyi, eləcə də Fransanın təkidi ilə Kanadanın fransız əsilli XİN rəhbərinin sayıqlamaları olduqca iyrənc bir ikiüzlülükdən xəbər verir. Üstəlik, bir xalqı, özü də yerli xalqı soyqırım törədərək son nəfərinə qədər məhv edən ölkənin Azərbaycanı, özü də haqsız yerə ittiham etməsinə reallıq və tarix yol verə bilməz. Uzaq başı, ədalətsiz mövqe və ittihamlara görə Melani Coli də, onun Azərbaycana qarşı qərəzli mövqedə olan ölkəsi də özünü rüsvay etmiş olar və belə də oldu.

Digər tərəfdən də, ölkəmizə qarşı sanksiya tələbi ilə çıxış edən Melani Coli deyəsən qətiyyən bilmir ki, onun ölkəsi Kanada, urana olan ehtiyacını Mərkəzi Asiya ölkələri vasitəsi ilə əldə edir və hava yolu ilə qətiyyən daşıya bilmədiyi üçün də, məhz uranı Azərbaycan üzərindən apara bilər və hələ kimin kimə qarşı sanksiya ilə çıxış etmək imkanının və şansının olduğunu XİN rəhbərinin ağlı kəsmirmiş. Ağlı kəsmirmiş ki, rəsmi Bakı bu ixracı dayandırdığı halda, Azərbaycanın Kanadaya sanksiya tətbiq etməsi real görünür, Ottavanın və yaxud xanım Coli kimi marionetin yox. Nə Ermənistanda sayıqlayan XİN rəhbəri Melani Coli, nə də onu İrəvana göndərən ölkəsi dərk etmirmiş ki, bununla ikiüzlülüklərini nümayiş etdirməkdən və ikili standartların tətbiqində alət olduqlarını ifşa etməkdən başqa heç nəyə nail ola bilməzlər və bilmədilər.

***İnam Hacıyev***

# Makronun Bakı dərdi

## Uran üçün Astana və Daşkəndə gedən Fransa onu necə daşıyacağını düşünür



Fransa hər zaman müsəlman ölkələrinə qarşı düşmənçilik mövqeyində dayanıb. Emmanuel Makron hakimiyyətə gələndən sonra isə bu münasibət tam olaraq kəskinləşib, rəsmi Parisin radikal baxışları sərtləşib. Bu da təsadüfi deyil. Ən zəif və idarəetmə qabiliyyətindən uzaq olan hazırkı hökumət ictimaiyyətin, həm də beynəlxalq aləmin diqqətini Fransadakı iqtisadi böhrandan, Afrikadakı uğursuzluqlarından yayındırmaq üçün yeni münaqişələrə qoşulur, indiki halda isə köhnə ixtilafları, düşmənçiliyi yeni formada alovlandırır.

Təbii ki, Ermənistanı dəstəkləmək Fransa üçün türk-müsəlman dünyası ilə intriqa aparmaq vasitəsidir. Erməniləri qorumaq, onları sivil dünyanın bir hissəsinə çevirmək Parisin planlarına uyğun deyil, bu bi bəhanədir. Fransanın Azərbaycana və qardaş ölkə Türkiyəyə qarşı neqativ mövqeyi və həqiqəti əks etdirməyən bəyanatları Makronun ağır durumundan xəbər verir. Yelisey Sarayının indiki sahibinin hakimiyyəti dövründə Fransa xalqının sosial iqtisadi vəziyyəti 2 dəfə aşağı düşüb, inflyasiya 11 faiz yüksəlib. Pensiya islahatları isə sosial partlayışla nəticələnib. Bu və digər faktlar Fransanı yenidən müstəmləkə siyasətinə qayıtmağa sövq edir.

Müasir dünyada yeni iqtisadi modellərin tətbiq edildiyi halda Fransa müstəmləkəçilik siyasəti yürütməyə üstünlük verir ki, bu da təsadüfi deyil. Məsələnin mahiyyəti ondan ibarətdir ki, müstəmləkəçilik tarixən Fransada mövcud olub. Azsaylı xalqları istismar etmək, təsiri altına saldığı ölkələrin təbii sərvətlərini talayıb varlanmaq Fransada ənənəvi iqtisadi model kimi qəbul edilib. Əslində, Fransanın rəsmi İrəvanın qeyri-konstruktiv və sülhdən qaçan siyasətini dəstəkləməsi və Azərbaycanın əleyhinə fəaliyyət göstərməsi heç də ermənilərə olan sevgisindən irəli gəlmir. Makron hökumətinə Ermənistanı təsir altında saxlamaq, iqtisadi fayda əldə etmək daha çox maraqlandırır. Lakin müasir dünyada bu siyasi xəttin uğurla nəticələnəcəyi mümkün deyil. Fransanın Afrikadan qovulması buna bariz nümunədir. Afrikadan qovularaq Cənubi Qafqazda məskunlaşmağa çalışan Fransanın bu siyasəti uzun sürməyəcək. Seçkilər yaxınlaşır və ölkəni böhran vəziyyətinə salan Makron və onun partiyasının yenidən seçkilərdən qalib çıxacağı böyük sual altındadır.

Fransa prezidenti Emmanuel Makron noyabrın 1-də Qazaxıstana, noyabrın 2-də isə Özbəkistana rəsmi səfər edəcək. Yelisey Sarayından deyiblər ki, səfər bu iki Mərkəzi Asiya ölkəsi ilə münasibətlərin dərinləşməsi kontekstində baş verir. Paris Vaşinqton və Brüsselə yanaşı regionda çəkisini qorumaq niyyətində olduğunu açıqlayıb. Astana və Daşkənddə ticarət-iqtisadi, investisiya və enerji əməkdaşlığının və nəqliyyatın gücləndirilməsi məsələləri müzakirə olunacaq. Bununla belə, uran danışıqları ön plana çıxır.



Makron administrasiyası vurğulayıb ki, Fransa Qazaxıstan və Özbəkistanı islahatlar və modernləşdirmə səylərində dəstəkləyir, tərəfdaşlıqların şaxələndirilməsinə kömək edir, onların müstəqilliyini və suverenliyini, eləcə də Avropa ilə əlaqələri gücləndirmək istəyini dəstəkləyir. Qeyd edilib ki, Fransanın vəzifəsi Avropa İttifaqı və amerikalı tərəfdaşlarla birlikdə Mərkəzi Asiyada mövcud olmağa davam etməkdir. İddia edilir ki, "Ukraynadakı münaqişə fonunda Mərkəzi Asiya ölkələrinin əsas iqtisadi və hərbi tərəfdaşı kimi Rusiya Federasiyasının regionda təsiri zəifləyir". ABŞ və AB ilə yanaşı, Çin və Türkiyə də "nüfuz yarışında" iştirak edir. Bunu nəzərə alaraq, Fransa prezidenti sənaye və xarici ticarət nazirləri ilə birgə Mərkəzi Asiyaya səfər etmək qərarına gəlib və Fransanın iri enerji şirkətləri və sənaye müəssisələrinin rəhbərləri də səfərdə onu müşayiət edəcəklər.

Makronun Qazaxıstan və Özbəkistana səfəri çərçivəsində Fransa şirkətlərinin iştirakı ilə iqtisadi forumlar keçiriləcək. Təhlükəsizlik cəbhəsində Fransa Özbəkistan və Qazaxıstanla birlikdə terrorizm və narkotik qaçaqmalçılığı təhlükələrinə qarşı, xüsusən də Əfqanıstanla bağlı işləyir. Bu səfər, Yelisey Sarayında qeyd edildiyi kimi, Fransaya "hər iki ölkə ilə dinamik mədəni əməkdaşlığı gücləndirmək" imkanı verəcək. Xüsusilə, Qazaxıstanda 2024-cü ilə qədər fransız dilini dərindən öyrənən məktəblərin açılması planlaşdırılır. Qeyd edək ki, bu, Fransa prezidenti Emmanuel Makronun Astana və Daşkəndə cavab səfəridir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ötən il noyabrın əvvəlində, Özbəkistanın rəhbəri Şavkat Mirziyoyev isə həmin ayın sonunda Parisə səfər ediblər.

Qazaxıstan və Fransa 2030-cu ilə qədər ticarət-iqtisadi və investisiya əməkdaşlığına dair yol xəritəsini təsdiqləyib. Fransa Qazaxıstan iqtisadiyyatına 17 milyard dollar sərmayə qoyan beş ən böyük investor ölkədən biridir. Xəbər verilir ki, Qazaxıstan və Fransa enerji, mədənçıxarma və yüngül sənaye, tikinti, aerokosmik, maşınqayırma, səhiyyə və qida sənayesi sahələrində birgə səmərəli layihələr həyata keçirirlər.

Özbəkistanın Fransa ilə əməkdaşlığı getdikcə artır. Şavkat Mirziyoyev 6 milyard dollarlıq müqavilələr portfeli gətirib ki, onların da əksəriyyəti enerji sektoruna aid idi. Bu, Özbəkistan üçün ən vacib sahədir. Fransa üçün bu, həm də bir nömrəli mövzudur. Makron Mərkəzi Asiyadan uran tədarükünün artırılması ilə bağlı danışıqlar aparır. Ölkədə istehsal olunan elektrik enerjisinin 80%-dən çoxu atom elektrik stansiyalarında istehsal olunur. Avropa Parlamentinin üzvü Thierry Marianinin sözlərinə görə, Fransanın Electricite de France (EDF) şirkətlərinin nüvə reaktorlarına xidmət göstərmək üçün ildə təxminən 10 ton uran filizi tədarükü lazımdır. Niger və digər Afrika ölkələrində bazarın itirilməsindən sonra xammalın həcmi Qazaxıstan və Özbəkistandan uran tədarükünü artırmaqla kompensasiya edilə bilər. Bunun müqabilində Fransa bu respublikalarda atom elektrik stansiyalarının tikintisinə və uranın emalı texnologiyasına köməklik təklif edir. Ancaq "Şərqə Bax" Telegram kanalının ekspertlərinin qeyd etdiyi kimi, problem var.

*Ardı Səh. 6*






Əvvəli Səh. 5

# Makronun Bakı dərdi

Paris Mərkəzi Asiya regionundan ya Rusiya, ya da Azərbaycan vasitəsilə uranı alır, çünki o, yalnız təhlükəsizlik baxımından quru yolu ilə daşına bilər. Atom elektrik stansiyaları üçün iri ölçülü komponentlər və qurğular da yalnız bu marşrutlar vasitəsilə tədarük edilə bilər. Ona görə də Makron uran yanacağının artırılması ilə bağlı Astana və Daşkəndlə razılaşmazdan əvvəl Moskva və Bakı ilə fikir ayrılıqlarını aradan qaldırmalı olacaq və indi onların çoxu var.

Qazaxıstan və Özbəkistanda atom elektrik stansiyalarının tikintisinə gəlincə, o zaman hesabatlara əsasən, Astana və Daşkənd Rosatom-u dəstəkləməyə daha çox meyllidir. Astana 20 ildən artıqdır ki, Atom Elektrik Stansiyasının tikintisinin mümkünlüyünü müzakirə edir, Daşkənd isə cəmi beş ildir ki, müzakirə edir. Ölkə sakinlərinin fikirləri bölünür, lakin buna baxmayaraq, əksəriyyət AES-in lehinə danışır və hesab edir ki, Rosatom podratçı olmalıdır. Konrad Adenauer Paperlab tədqiqat mərkəzi ilə birlikdə Qazaxıstan vətəndaşları arasında "Qazaxıstanlıların atom elektrik stansiyalarının tikintisinə münasibəti" mövzusunda sorğu keçirib. Respondentlərin əksəriyyəti Qazaxıstanın atom elektrik stansiyasının tikintisi zamanı Rusiya şirkəti ilə əməkdaşlıq etməsinin tərəfdarı olub - respondentlərin 23,3%-i bu varianta səs verib. İlin sonuna qədər Qazaxıstan atom elektrik stansiyasının tikintisində hansı şirkətin tərəfdaş kimi çıxış edəcəyinə qərar vermək niyyətindədir. Bu barədə Qazaxıstan Atom Elektrik Stansiyalarının baş direktoru Timur Jantikin bildirib.

"Özbəkistanda Rusiyanın "Rosatom" şirkəti ilə danışıqlar çətin gedir, 5 ildir ki, davam edir. Amma ciddi irəliləyişlər də var. Hesab edirəm ki, biz sonda belə qənaətə gələcəyik ki, böyük saziş hazırlanacaq və imzalanacaq, çünki bu, ilk növbədə Özbəkistan üçün lazımdır. Ölkəmizin başqa alternativi yoxdur", - deyə Mano Tədqiqat Təşəbbüsləri Mərkəzinin direktoru Bəxtiyor Erqaşev bildirib.

Makronun Mərkəzi Asiyaya səfəri Fransanın beynəlxalq arenada və regional kontekstdə mövqelərini gücləndirmək üçün vacibdir. Səfər bir neçə aspektdə nəzərdən keçirilməlidir. Birincisi, hazırda ənənəvi təsir dairələrini itirərək Afrikadan bütün cəbhələrdə geri çəkilməyə məcbur olan Fransanın qlobal mövqeyinin ölçülməsi. Bu, Parisin beynəlxalq aləmdəki imicinə və çəkisinə ciddi zərbədir. Fransanın Mərkəzi Asiyada, ilk növbədə Qazaxıstan və Özbəkistanda aktivləşməsi sayəsində Makron bununla Parisin güclü olduğunu, xarici iqtisadi və xarici siyasət əlaqələrini şaxələndirdiyini nümayiş etdirir və ümumiyyətlə, geniş şəbəkəyə malik qlobal oyunçu kimi özünü göstərir.

Regional baxımdan, ekspertlər hesab edirlər ki, bu səfəri Qərb ölkələrinin Mərkəzi Asiyada artan fəallığı kontekstində nəzərdən keçirmək vacibdir. Son vaxtlar ən yüksək səviyyədə "5+1" formatında görünməmiş sayda müxtəlif sammitlər keçirilib. Fransa bu kontekstdə uyğun gəlir. Parisin əsas vəzifəsi Mərkəzi Asiyanın xarici siyasətinin şaxələndirilməsinə inteqrasiya etməkdir. Buna görə də, iqtisadi məqsədəuyğunluğuna görə, regionun iki ən böyük oyunçusuna - Qazaxıstan və Özbəkistana cəmləşmək qərara alınıb. Bölgədə Fransanın enerji layihələrinin təşviqi ola bilər. Fransa özünü texnoloji cəhətdən inkişaf etmiş ölkə kimi təqdim edir. Başqa bir sual ondan ibarətdir ki, Fransa ilə Mərkəzi Asiya ölkələri arasında əvvəllər imzalanmış, çox milyardlıq müqavilələrin imzalanması ilə müşayiət olunan sazişlərin əksəriyyəti yerinə yetirilməyib. Buna görə də səfər nəticəsində imzalanacaq sənədlərə kifayət qədər tənqidi baxmaq lazımdır, onların nə dərəcədə möhkəm olacağı, niyyət bəyannamələri və ya real layihələr üçün planlar olacağı, Fransa diplomatiyasının uğurundan asılı olacaq.

### ABŞ-ın postsovet məkanında sabitliyi pozmaq kursu

2024-cü ildə Birləşmiş Ştatlar postsovet məkanı ölkələrinə qarşı sabitliyi pozmağa və yeni gərginlik mənbələrini təhrik etməyə yönəlmiş siyasətini davam etdirəcək. ABŞ diqqətini Rusiyaya yönəldəcək və bu, Amerikanın xarici siyasətinin prioritetlərindən biri olaraq qalacaq. ABŞ-ın postsovet məkanına xarici siyasətinin ekspansiyası onun dünyada lider mövqeyini saxlamaq istəyini əks etdirən uzunmüddətli maraqlarla diktə olunur. Bu məqsədə çatmaq üçün ABŞ artıq yaranmış münaqişəli situasiyalardan daha fəal istifadə etmək, eləcə də ayrı-ayrı ölkələrə müxtəlif təsir alətlərindən istifadə etmək niyyətindədir.

ABŞ-ın postsovet məkanında xarici siyasət strategiyasının prioriteti Rusiyadır. Rusiyanın müstəqil xarici siyasət yürütməsi, iqtisadi potensialını qoruyub saxlaması, dünya siyasətinin və dünya iqtisadiyyatının inkişafı üçün alternativ gündəliyi irəli sürməsi ABŞ-da narazılıq yaradır. Bundan başqa, ABŞ postsovet məkanında müstəqil siyasət yeritməyə qadir olan yeni güc mərkəzlərinin formalaşmasına qarşıdır. Rusiyanın istənilən təşəbbüsləri ABŞ-da narahatlıq doğurur, onları inteqrasiya layihələrinin inkişafına qarşı çıxmağa sövq edir. Bu səbəbdən ABŞ Avrasiya İqtisadi İttifaqını (Aİİ) zəifləmətməyə çalışır. Təzyiq birbaşa Rusiyaya, eləcə də inteqrasiya birliyinin üzvlərinə edilir. Birləşmiş Ştatlar Rusiyanın ən yaxın tərəfdaşlarına qarşı açıq təzyiqə əl atır və onlardan Qərb ölkələrinin sanksiya siyasətlərinə daha fəal dəstək axtarır. Amerika tərəfi ölkələri Rusiyadan uzaqlaşmağa təşviq edərək birbaşa siyasi təzyiqə əl atır.

ABŞ Ukraynada münaqişənin saxlanmasında maraqlıdır. ABŞ administrasiyası Ukraynaya 61 milyard dollar məbləğində yeni maliyyə yardımı paketinin ayrılmasına nail olmağı gözləyir.Bu yanaşma Amerika tərəfinin əsas təzyiq vasitəsi kimi görünən silahlı münaqişənin davam etdirilməsinə töhfə vermək niyyətini nümayiş etdirir. Rusiya və onun xarici siyasəti haqqında. Ukrayna ərazisindən istifadə edərək, Ukraynaya əhəmiyyətli maliyyə resursları ayıraraq və irimiqyaslı silah-sursatla təmin edən ABŞ Rusiya iqtisadiyyatına təsir edəcəyini gözləyir. Öz növbəsində, ABŞ-ın təzyiqi altında Kiyev münaqişəyə son qoyacaq danışıqların aparılması ideyasını inkar edərək sərt siyasət yürüdür.

Rusiya 2022-ci ilin fevralında "xüsusi hərbi əməliyyat"a başladıqdan sonra ABŞ postsovet məkanında siyasətini gücləndirib. Amerika siyasəti üçün Rusiyanın xarici siyasətinin tənqidi və sanksiyaların tətbiqi "norma"ya çevrildi, postsovet məkanı ölkələrində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının fəaliyyəti gücləndi, məhdudiyyətlər genişləndirildi və ya Rusiyanın fəaliyyətinə müxtəlif beynəlxalq təşkilatlarda yeni maneələr yaradıldı. Son zamanlar ABŞ postsovet məkanı ölkələri ilə qarşılıqlı fəaliyyətin ikitərəfli və çoxtərəfli formatlarından fəal şəkildə istifadə edir. Amerika administrasiyasının yüksək rütbəli nümayəndələrinin səfərləri zamanı postsovet məkanı ölkələrinin rəhbərliyinə siyasi təzyiqlər edilir. Əsas tələb xarici siyasət kursunun korreksiyası, zəifləmdilməsi, gələcəkdə isə Rusiyadan uzaqlaşdırılmasıdır. İqtisadi təzyiq rıçaqları fəal şəkildə istifadə olunur.

Qeyri-hökumət təşkilatları ABŞ siyasətində böyük rol oynayır və Amerika maraqlarının əsas dirijorudur. İctimai rəyə təsir göstərmək və siyasi elita ilə işləmək yolu ilə onlar ayrı-ayrı ölkələrdəki siyasi vəziyyətə təsir göstərirlər. Qeyri-hökumət təşkilatlarına müxalifət qüvvələrinin praktiki hazırlığı, etiraz aksiyalarının keçirilməsi üçün zəruri olan strukturların formalaşdırılması, təşkil olunmuş etiraz aksiyalarının alternativ informasiya təminatının yaradılması həvalə olunub. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti müxalifətin maliyyə dəstəyinə yönəlib ki, o, hakimiyyətə gələrsə, xarici siyasət kursunu kökündən dəyişməli və "demokratik" transformasiyalar prosesinə start verməlidir. Daxili siyasi dəyişikliklərin gedişində anti-Rusiya qüvvələrinin fəaliyyətinin genişlənməsinə şərait yaradılır. Ukraynadakı vəziyyət bu ssenarinin həyata keçirildiyini açıq şəkildə nümayiş etdirdi.

Beynəlxalq maliyyə institutları ənənəvi olaraq ABŞ siyasətinin mühüm aləti olub, onun vasitəsilə postsovet məkanı ölkələrinə təzyiq edilir. İlk növbədə bunlar BVF, Dünya Bankı və Amerika siyasətinin həyata keçirilməsində iştirak edən digər təşkilatlardır. Onların vasitəsilə ABŞ kreditlərin verilməsini tələblərin yerinə yetirilməsi ilə sıx əlaqələndirərək ayrı-ayrı ölkələrin xarici və daxili siyasətinə təsir göstərmək, onlara şərtlər qoymaq imkanı əldə edir.

Son illərdə Rusiyanı cilovlamaq və postsovet ölkələrini Rusiyanın təsirindən uzaqlaşdırmağa təşviq etmək siyasəti istisnasız olaraq bütün postsovet ölkələrinə açıq təzyiq siyasəti ilə əvəzlənib. Belə bir siyasət postsovet məkanını köklü şəkildə yenidən formatlaşdırmaq və orada qeyri-sabitlik və münaqişə ocaqları yaratmaq, müəyyən ölkələrdə anti-Rusiya əhval-ruhiyyəsini genişləndirmək məqsədi daşıyır.

Baydenin hakimiyyətə gəlməsi ilə ABŞ-ın postsovet məkanında siyasəti güclənib, qarşıdurma xarakteri alıb və daha geniş alətlərə arxalanıb. Daxili işlərə müdaxilə açıq şəkildə həyata keçirilir və postsovet məkanı ölkələrində müxalifətə dəstək mühüm miqyas alıb. ABŞ-da prezident seçkiləri 2024-cü ilin sonunda keçirilməlidir. Bu ana qədər ABŞ-ın postsovet məkanı ölkələrinə münasibətdə siyasəti dəyişməyəcək. ABŞ-ın postsovet məkanının bəzi ölkələrində sabitliyi pozmaq və onlara kənar nəzarət yaratmaq kursu davam edəcək.

***V.VƏLİYEV***

# Tarix təkrar olunur

## 100 il bundan əvvəl olduğu kimi, bu gün də Türkiyə erməni vandallarının Qarabağdan təmizlənməsində Azərbaycana mənəvi, siyasi dəstəyini əsirgəmədi

Reallıq ondan ibarətdir ki, dinindən, irqindən, tutduğu mövqeyindən asılı olmayaraq kimsə müharibə arzu etməz və ölkəsinin odlu-alovlu olmasını istəməz. Allahın yaratdığı bütün varlıqlar sülh, əmin-amanlıq içində yaşamaq, səmasının aydın, torpağının rahat nəfəsini duymaq istəyir. Amma haqqının tapdandığı, torpağının işğal edildiyi, insanlarının qətliamlara düçar olub, ev-eşiyindən zor gücünə didərgin salınmasına heç bir halda dözmək olmaz. Bir növ döyüş meydanında ədaləti bərpa etmək vacibdir. Necə ki, faşist təfəkkürlü Ermənistan rəhbərliyi 1991-1993-cü illərdə Azərbaycanda yaranan hakimiyyət böhranından, AXC-Müsavat iqtidarının səriştəsizliyindən istifadə edərək 20 faiz torpaqlarımızı işğala edib, 1 milyona yaxın insanı ev - eşiyindən didərgin salmışdır. 26 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd qətnamə qəbul etsə də, Ermənistan bu qərarlara əhəmiyyət verməyib. Bununla yanaşı, AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sülh danışıqları da nəticəsiz qaldı. Təbii ki, sonsuza qədər danışıqlar aparıla bilməzdi. Bir gün status-kvo dəyişməli idi və belə də oldu.







### Zəfər tariximizin Qarabağ salnaməsi

Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində torpaqlarımız Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad edildi. 44 günlük müharibə ilə Ermənistanın 30 ilə yaxındır ki, qurduğu mühəndis-istehkam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 4 milyard ABŞ dolları olan hərbi texnikası qənimət olaraq götürüldü. Bu, böyük qələbəmizdir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin dediyi kimi, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın: "Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

### Azərbaycan hərb meydanında düşmənə layiq olduğu yerini göstərdi

Azərbaycan hərb meydanında düşmənə layiq olduğu yerini göstərməklə bərabər bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və Prezident İlham Əliyevin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edilib.Qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq.

Fəxr edirik ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. Milli Məclisin Regional məsələlər Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Siyavuş Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində tarix yazdı: "30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün tam təmin edilməsi şanlı qələbəmizdir. Bütün dünya Azərbaycan dövlətinin qüdrətinə, xalqımızın mübarizə əzminə, ordumuzun rəşadətinə şahidlik etdi.Şübhəsiz ki, qarşıdakı dövrdə qalib ordumuzun qəhrəmanlığı, əsgər və zabitlərimizin igidliyi müxtəlif vasitələrdən istifadə etməklə geniş təbliğ edilməlidir. Bunlardan biri Vətən müharibəsi ilə bağlı həqiqətlərin orta məktəb dərsliklərinə salınmasıdır. Bu, şagirdlərdə vətənpərvərliyin formalaşdırılması və inkişafına xidmət etməklə yanaşı, gənclərin milli ruhda tərbiyəsinə böyük töhfə olar. İkinci məsələ odur ki, 44 günlük Vətən müharibəsi ilə bağlı filmlərin çəkilməsi də vacib əhəmiyyət daşıyır. Aidiyyatı qurumlar tərəfindən mütəmadi şəkildə təhlillərin, araşdırmaların aparması, düşmənin xalqımıza qarşı həyata keçirdiyi törətdiyi bütün cinayətlərin, kənd və şəhərlərimizdə törətdiyi vəhşiliklərin hər birinin tam aşkarlanması, yeni nəsillərə çatdırması olduqca önəmlidir". Qələbələrimizin təməli sentyabrın 27-də qoyulsa da demək olar ki, 8 noyabr 2020-ci il Qarabağımızın incisi Şuşanın azad edilməsi ilə Qarabağa qovuşduğumuz tarixdir. Bu Böyük Qələbə ilə Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə Nida qoyduğu gündür. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən, Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezident, Ali Baş Komandan İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməsi ilə nəticələndi. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik  Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi" söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir: "Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!". Haqqımız olan qələbə təntənəni şəkildə qeyd olunmalı idi və oldu da. Noyabrın 10-da dostları sevindirb, düşmənləri xar edən qələbə paradı keçirildi. Bu parad həm də işğal altında olmuş torpaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. "Azadlıq" meydanında keçirilən Qələbə Paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Parada, həmçinin, Vətən Müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Qürurverici məqamlardan biri də ondan ibarət idi ki, müharibənin ilk günündən ürəyi, qəlbi Qarabağla döyünən qardaş Türkiyənin hakimiyyəti, xüsusilə də Prezident Rəcəb Tayyib Ərdoğan Qələbə Pardında da Azərbaycanla birlikdə oldu. "Tarix təkrar olunur"-deyiblər.

### 44 günlük Vətən Müharibəsi ilə tarix yazan Azərbaycan

100 il bundan əvvəl Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Milli Ordusu ilə birlikdə Bakını erməni daşnaklarından azad etmişdir. Uğurlu hərbi əməliyyatlarla Azərbaycanın bütün bölgələri erməni terrorçularından təmizlənmişdir. Bu gün də, ulularının qardaşlıq dəstəyini əsirgəməyən Türkiyə qardaşlarımız başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla erməni vandallarının Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağdan təmizlənməsində Azərbaycana mənəvi, siyasi dəstəyini əsirgəmədi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən Zəfər paradında çıxışı zamanı bildirdi ki, Türkiyə hər zaman Azərbaycanın yanında olacaq: "İnanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dastan yazmağa davam edəcək. Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin "iki millət, tək dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik".

Qələbə Paradında Türkiyə Ordusunun mehmecikləri sıra keçidində qürurla və əzmlə keçdilər. Bu məqamda türk qardaşlarımızın bizə olan hədsiz rəğbətinin daha bir nümunəsi ondan ibarət idi ki, Qarabağda şəhid olan 2783 şəhidimiz sayında mehmetcik sıra keçidində iştirak etdilər. Əhsən belə qardaşlığa, var olsun belə birlik. Söz yox ki, qələbə paradımızın yolu uğurlu və xeyirli olacaq. Qələbə Paradı Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılmaqla yanaşı, həm də zamanında Ermənistana pay olaraq verilən Zəngəzurun, Göyçənin, İrəvanın Böyük Azərbaycan torpaqlarına qatılmasına işartı olacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qələbə Paradında dediyi fikirlərdə ümidləri artırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qələbə Paradında Zəngəzuran, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirdi: "Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

Bir sözlə, qələbələrimiz və uğurlarımız hələ qabaqdadır. Azərbaycanın hər yerində geniş vüsət alan quruculuq abadlıq işləri işğaldan azad edilən Xankəndidə, Ağdərədə, Xocavəndə, Xocalıda və digər ərazilərimizdə də aparılacaq. İnsanlar doğma yurdlarına qayıdaraq əvvəlki sakit, firavan yaşayışlarını davam etdirəcəklər.

**İ.ƏLİYEV**

# 44 günlük haqq savaşımız

30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və ordumuzun gücləmməsi Azərbaycanın Vətən müharibəsində döyüş meydanında öz sözünü deməsi ilə nəticələndi. Azərbaycan torpaqları işğaldan azad olundu. Artıq bu ərazilərdə yeni bir dövrə - inkişaf, quruculuq dövrünə qədəm qoymuşuq. Bu Zəfəri xalqımıza yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və ölkəmizin güclü ordusu oldu. Bu gün Azərbaycan bayrağı işğaldan azad olan Cəbrayıl şəhərində, Zəngilan şəhərində, Füzuli şəhərində, Qubadlı şəhərində Şuşada dalğalanır.

## "BU KƏNDLƏRDƏ YAŞAMIŞ SAKİNLƏRƏ XOŞ XƏBƏR ÇATDIRMAQ MƏNİM ÜÇÜN BÖYÜK ŞƏRƏFDİR"

"Dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri! Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir". Bu fikirləri 2020-ci ilin oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində bildirmişdir. Artıq Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğalda olan bir sıra şəhər, qəsəbə və kəndlərimiz azad edilmişdi. Biz işğal tariximizdən deyil, artıq qələbə ilə zəngin olan Azərbaycan tarixindən yazırdıq. Yaxın tariximizdə vətən torpağının 20 faizi erməni işğalçılarının təcavüzkar siyasəti nəticəsində işğal altında idisə, artıq bu torpağın müəyyən hissəsi işğalçılardan azad olunmuşdu. Azərbaycan ordusunun əzmi, əsgər adını şərəflə daşıyan oğullarımızın ermənilərə verdiyi dərs bu torpaqların təzliklə qaytarılmasından soraq verirdi. Azərbaycan əsgəri mərdi-mərdanə düşmənlə üz-üzə idi. Müharibə qan-qadadır. Ölümdür, itkidir. Buna baxmayaraq, Azərbaycan anası öz oğullarını ləyaqətlə müharibəyə yola salırdı. Bütün xalq Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşmişdi.

## "BİZ DÜŞMƏNİ TOPLAM 404 YÜK AVTOMOBİLİNDƏN MƏHRUM ETMİŞİK"

Bir ay ərizində Ermənistanın məhv edilmiş və hərbi qənimət götürülmüş texnikası açıq-aydın döyüş meydanında Ermənistanın məğlubiyyətinin göstəricisi idi. "252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var. Görün nə qədər tank olub onlarda. Piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb - cəmi 79 ədəd. Müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə - 53-ü məhv edilib. 82 "Qrad" qurğusu məhv edilib. 2 "Uraqan"Yaylım Atəşli Raket Sistemi, 1 "TOS" məhv edilib. Zenit-raket kompleksləri - 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", 1 "KRUQ", 2 "S-125" qurğusu məhv edilib. "S-300" ən bahalı qurğulardan biridir, 6 "S-300" atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri - Elbrus, ikisi məhv edilib, "Toçka-Ulu Öndər" biri məhv edilib. Yük avtomobilləri - 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik" - deyə Cənab Prezident xalqa müraciətində diqqətə çatdırmışdır.

Azərbaycan torpaqlarına sancılan bayraqlarımız bizi daha da ruhlandırırdı. Artıq bir sıra işğaldan azad olunan torpaqlarımız kimi Qubadlı şəhəri də azadlığına qovuşmuşdur. Ərazisi 802 kv.km olan Qubadlının 94 yaşayış məntəqəsi, o cümlədən, 1 şəhər və 93 kəndi var. 31 avqust 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. İşğal ərəfəsində isə əhali 30 minə qədər olub. İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edib. 2 üzümün ilkin emalı zavodu, 1 yağpendir zavodu, 1 asfalt zavodu, 1 inkubator-quşçuluq fabriki, 1 balıqyetişdirmə vətəgəsi, 1 daş karxanası, 1 mərmər sexi, Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun filialı və s. fəaliyyət göstərib. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə olub. Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib. Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib.

Ümumilikdə, işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13 365 hektar meşə sahəsi işğal altında qalmışdı.

Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr işğal olunub. Erməni təcavüzü zamanı Qubadlı 238 şəhid verib, 146 nəfər əlil olub.

## "ERMƏNİSTAN DİZ ÇÖKÜB, ARTIQ ONUN BAŞINDAN ELƏ VURMUŞUQ Kİ, AYILA BİLMİR"

Həmişə olduğu kimi ermənilər təxribatlar törətmək, iftira xarakterli məlumatlar yaymaq işini davam etdirirdi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında uduzduğunu aydın dərk edirdi. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş olur. Ermənistan döyüş meydanında artıq Azərbaycanın qarşısında diz çökmüşdü. "Atəşkəsdən istifadə edib öz qüvvələrini yenə də səfərbər etmək istəyir, yenə də silahlanmaq istəyir və bizə qarşı yeni işğalçılıq siyasəti aparmaq istəyir", - deyə Prezident bildirib: "Belə məlumatlar var və əfsuslar olsun ki, son bir ay ərzində Ermənistana kütləvi surətdə silahlar göndərilir, müxtəlif növ silahlar. Bütün siyahılar bizdə var. Onların bəziləri bizim mətbuatda da dərc edilib. Bütün siyahı var, nə vaxt, hansı təyyarə gəlib, haraya gəlib, nəyi gətirib, necə boşaldıb, haraya göndərilib? Yaxşı, atəşkəsi istəyən niyə silah göndərir Ermənistana? Axı, Ermənistan diz çöküb, artıq onun başından elə vurmuşuq ki, ayıla bilmir. Ermənistanın baş naziri - Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edən, özünü böyük sərkərdə kimi aparan indi yıxılıbdır onun-bunun ayağının altına kömək istəyir, imdad diləyir, özünü alçaldır, xalqını alçaldır. Yaxşı, silah verməyin qurtaraq da. Verməyin. Bizə kim verir? Heç kim vermir. Verməyin. İstəyirsinizsə qurtarsın, silah verməyin. İki gündən sonra gələcək yalvara-yalvara. Bir tərəfdən atəşkəs deyilir, digər tərəfdən onlara silah göndərilir. Bu, nə məsələdir? Biz buna səssizmi qalacağıq?"

Bildiyimiz kimi, 2020-ci ilin oktyabr ayının 10-da birinci dəfə atəşkəs qüvvəyə mindi. Humanitar xarakter daşıyan aatşkəsə həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün Azərbaycan razılıq vermişdi. Ermənistan bir gün keçməmiş bu atəşkəsi kobudcasına pozaraq gecə saatlarında Gəncəni bombaladı. "Ondan sonra oktyabrın 17 - də yeni atəşkəs elan olundu. Yenə də iki dəqiqədən sonra Ermənistan bunu pozdu. İndi bu gün səhər saat 8 - dən yeni bir təklif verildi. Ancaq səhər 9-da artıq mən maraqlandım, bir neçə dəqiqə keçmiş atəşkəs Ermənistan tərəfindən pozuldu, Tərtər rayonuna yenə də atəş açıldı. Ancaq mən yenə də göstəriş vermişəm, hələ ki, Azərbaycan Ordusu özünü təmkinlə aparsın, təxribata uymasın. Mənim mövqeyim xalqıma bəllidir. Bu məsələ öz həllini tapmalıdır, ya hərb yolu ilə, ya sülh yolu ilə.Mən təklif etmişəm ki, əgər istəyirsinizsə, sülh yolu ilə həll olunsun, yaxşı, biz dayandıraq. Ancaq dərhal bizə deyilməlidir ki, Ermənistan bizim torpaqlarımızdan çıxır" - deyə Prezident müraciətində xalqa bildirmişdir.

İkinci Qarabağ müharibəsi ərzində Ermənistan Silahlı Qüvvələri və Qondarma Dağlıq Qarabağ Müdafiə Ordusu tərəfindən Azərbaycanın Tərtər rayonundakı şəhər, qəsəbə və kəndləri artilleriya, raket və kasset bombalı silahlarla bombardman edilirdi. Bölgənin bombardmanı müharibənin ikinci günündə, 28 sentyabrda, erməni qüvvələri rayonun inzibati mərkəzi olan Tərtər şəhərini və Birinci Qarabağ müharibəsində qaçqın düşən azərbaycanlılar üçün inşa edilən Şıxarxı atəşə tutduqda başlayır. Bombardman geniş dağıntılara və çox sayda mülki ölümə səbəb olur. Minlərlə insan Tərtər şəhərini bir xəyal şəhərciyinə çevirərək, qaçqın olur və Bərdə kimi qonşu şəhərlərə köç edir. Bu axınlarda erməni qüvvələri tərəfindən hədəf alınır. Rəsmi məlumata əsasən, Azərbaycan hakimiyyəti, erməni qüvvələrinin 29 oktyabr tarixinə qədər Tərtər rayonu ərazisinə 15.500 mərmi atılıb, Rəsmi Azərbaycan rəqəmləri göstərir ki, bombalar zamanı məktəblər, xəstəxanalar və dövlət binaları da daxil olmaqla mindən çox mülki obyekt ya ziyan görmüş, ya da məhv edilmişdir.

Tərtər şəhərinin, habelə rayondakı qəsəbə və kəndlərinin bombardmanı yalnız 10 noyabrda Ermənistanın Dağlıq Qarabağ atəşkəs bəyanatını imzalamasından sonra dayandırılır. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş olur. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmədi və Azərbaycan Ordusu öz torpaqlarında müharibəsini davam etdirərək, Zəfər tarixini yazdı.

***Zümrüd BAYRAMOVA***



# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər





“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il oktyabrın 31-də YAP Saatlı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Saatlı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib, YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim edilib. Sonda xatirə fotosu çəkdirilib.




# Dünya Şəhərlər Günündə bizim şəhər



MƏTANƏT

**Oktyabrın 31-də Dünya Şəhərlər Günü qeyd olunur. Bu gün planetin bütün sakinlərinin 55 faizi şəhərlərdə yaşayır. 2050-ci ilədək planetin əhalisinin 75 faizi şəhərliyə çevriləcək. Mütəxəssislərin hesablamalarına görə şəhər sakinlərinin sayının sürətli artımı sənayeləşdirilmə sahəsində yeni imkanların açılmasını vəd etməklə yanaşı, eyni zamanda qeyri-bərabərliyin artması və ətraf mühitin çirklənməsi ilə nəticələnəcək.**

Bəs bu sahədə Azərbaycanda vəziyyət necədir? Azərbaycanda əhalinin 52,8 faizi şəhərdə, 47,2 faizi isə kənd yerlərində yaşayır. Elə bu qeyri-bərabərlik də artıq illərdir ki, özünü göstərməkdədir. Baxmayaraq ki, gözəl-gözəl şəhərlərimiz var, lakin dünya ölkələrindən fərqli olaraq Azərbaycanda insanlar yalnız bir şəhərə toplaşır-Bakıya. Ona görə də bu şəhərdə artıq insan əlindən nəfəs almaq, tərpənmək mümkün deyil. Yollarda maşın sıxlığı, siqnal səsi, ictimai nəqliyyatdan camaatın bir-birinin çiynində istifadə etməsi, şəkilərdə iynə atılsa, yerə düşməməsi misalı, parklarda gəzmək imkansızlığı...

Bu gün-Dünya Şəhərlər Günündə illər öncəki Bakını xatırlayıram Bakıda. O vaxt ki insanlar öz kəndində-kəsəyində oturmuşdu. Bakı eşqi başlarına vurmamışdı. O vaxt ki Bakı əsl Bakı idi. Yollarında maşın maşına dayanmırdı. Siqnal səslərini toyda-düyündə eşidirdik. O vaxt ki tədris vaxtı da ictimai nəqliyyat bugünkü qədər sıx olmurdu. Çünki insanlar kəndlərini Bakıdan daha çox sevirdilər. Torpaqlarından qopub onu Bakı ilə əvəz etmək fikrində deyildilər. Əkib-becərir, Bakıda yaşayan övladlarına meyvə-tərəvəz payı göndərirdilər. Özləri də hərdən Bakıya gəzməyə gəlirdilər. Elə ki hamı bakılı olmaq sevdasına düşdü, kəndlər boşaldı, yurdlar yetim qaldı, Bakının da qara günləri başladı. Axı bu şəhər minlərlə insana necə qucaq açsın? Axı o, müəyyən ölçüyə malikdir. Bu ölçüləri genişləndirə, artıra bilmir...

Nə üçün kəndlərimizi tərk edirik? Hamımız şəhərli olmağa çalışırıq? Kəndləri də orada məyus qoyuruq? Gəlib şəhərin ən ucqar yerlərində yaşayıb, "biz Bakıda yaşayırıq",- deyirik. Nə olub ki, kəndlərimizə? Havası, suyu tərtəmiz. Meyvəsi-tərəvəzi bol, təbii...

Nə üçün qapılarımızı bağlı qoyub şəhəri seçirik? XXI əsrin dəbidirmi bu? Əziyyətsiz yaşamağa üstünlük veririk. Mal-heyvandan, əkin-biçindən, toyuq-cücədən qaçıb şəhərdə rahatlıq axtarırıq. Axı onların hər biri gözəl bir təsərrüfat sahəsidir: gəliri, qazancı, zəhməti-sağlamlığı ilə...

Biz şəhərli olmağa can atırıq. Asan, rahat həyat axtarırıq. Lakin əsl gözəlliyi arxamızda qoyub sıxlıq yaratdığımız şəhərə üz tutanda nələrin üzərindən xətt çəkdiyimizi necə, düşünürükmü? Düşünürükmü ki, sağlamlığımıza, əlvida, deyirik. Yurdumuza bağlılığa, əlvida, deyirik. Evi-eşiyimizə, bağ-bağçamıza, buradakı ata-babamız yaşda olan ağaclara, əlvida, deyirik. Onları su ilə sınaqla üz-üzə qoyub tərk edirik...

Gəlirik şəhərə. Gəldikcə də Bakının gözəlliyini əlindən alırıq. İstər-istəməz çirklənir bu şəhər. Sıxlıqdan əziyyət çəkir. Bakı Bakılıqdan çıxır...

Özümüz də sıxlıqdan əziyyət çəkirik bu şəhərdə. İşə gecikirik. Metroda növbəyə düzülürük, marşrut avtobusların 2-3-nü yola salandan sonra birtəhər növbəti gələnə minə bilirik. Marketlərdə kassa qarşısında dəqiqələrlə vaxt itiririk. Tələsirik, lakin küçədə sıxlıqdan yeriyib irəli keçə bilmirik. Parklarda istirahət mümkünsüz olub. Elə bütün bu səbəblərdən də şəhərimiz həddindən artıq çirklidir. Bir sözlə, biz insanlar bu şəhərin qəniminə çevrilmişik. Nədir bu şəhərin günahı?

# “Mühakimə prosesinə müdaxilənin heç bir nəticəsi olmayacaq”

*ŞƏRH EDİLDİ*




“Bu günə aydın şəkildə bəlli olan mənzərə budur ki, artıq həbs və ittiham olunan bir neçə erməni separatçısının taleyi ilə heç kim maraqlanmır. Buna heç ehtiyac da yoxdur. Sadəcə Ermənistanda bəzi media orqanları hələ də Vardanyan və onunla birlikdə Bakıda mühakimə olunan separatçı dəstə başçıları ilə bağlı müəyyən məlumatları ictimai rəyə pərçimləməklə məşğuldur”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib. Onun sözlərinə görə, cürbəcür gurultulu və təbliğat xarakterli başlıqlar qoymaqlarına baxmayaraq Ermənistanda ictimaiyyət belə özünü lider kimi qələmə verən keçmiş separatçı başçılarına o qədər də maraq göstərmir: ”Hər kəs başa düşür ki, Azərbaycan separatçı rejimə son qoydusa, deməli həmin separatçıların mühakimə prosesinə müdaxilə etməyin ciddi bir nəticəsi olmayacaq”.

”Amma həll olunmuş keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəzi məsələlərə dünya hələ də aktual olaraq baxır. Yeri gəldikdə məsələlərin mahiyyətini saxtalaşdırırlar, guya ermənilər Azərbaycandan deportasiya edilir və ya ermənilərin Azərbaycandan ağır miqdarda kompensasiya almaq hüququ qələmə verilir. Dünyada bu gün media dairələrinin və diplomatik siyasi dairələrin maraq göstərdikləri məsələlər yalnız bundan ibarətdir. Düşünürəm ki, bu kontekstdə Bakıda separatçıların mühakimə olunması məsələsi dünyanın gündəmindən düşüb”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

# “Müxalifətdə mövzu qıtlığı yaranıb”

*ŞƏRH EDİLDİ*



“Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanmasının ertələnməsi risk yaratmır. Hər dəfə Ermənistan səhv addım atdıqca Azərbaycan öz iradəsini ortaya qoyur. Burada sərhədlərin delimitasiya və demorkasiyası məsələsi var. Bunların heç biri Ermənistanın xeyrinə deyil”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev AXCP sədri Əli Kərimlinin dediklərinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, Azərbaycan elə bir dövlət deyil ki başqa bir dövlətin ərazisinə girməyi bəyan etsin və bunu özü üçün fəxr saysın: ”Müxalifətin bu fikirləri haradan tapıb çıxardığını anlaya bilmirəm. Mövzular bitib indi də belə mövzulara əl atırlar. Onların siyasi proqnozunun görmə məsafəsi cəmi üç illik imiş. Uzun müddət yaxalarını cırdılar, biri başını, biri də qulağını kəsirdi. Amma noldu? Azərbaycan bayrağı Xankəndidən asıldı. Ola bilsin noyabrın 8-i Zəfər paradını da Xankəndidə keçirək. Müxalifətin bu qədər narahat olması onlarda Paşinyan təfəkkürünün formalaşmasına gətirib çıxardır”.

Cümşüd Nuriyev sözlərinə belə davam edib: ”Azərbaycan birmənalı şəkildə iradəsini ortaya qoyub. Nəyin nə zaman həll olunması məsələsini bütün dünyaya və müxalifətə göstərdi. Müxalifətdə mövzu qıtlığı yaranıb. Əvvəl çox hay-küy salırdılar ki, Qarabağı alan yoxdur. İndi isə məsələlər həll olunub. Onların cənab Prezidentə qarşı səsləndirdiyi fikirlər çox ədalətsizdir.

Azərbaycan bayrağını Xankəndidə ucaltmağı bacaran Ali Baş Komandana qarşı bu qədər nifrət, həyasızlıq, abırsızlıq və əxlaqsız fikirlər irəli sürənləri Azərbaycan xalqı bağışlamayacaq. Adam ölkəsi üçün hər şey etdi. Biz niyə şəxsi maraqlarımızı dövlətin milli maraqlardan üstün bilməliyik?! Bu nəinki haqsızlıq, hətta əxlaqsızlıqdır”.

***Ayşən Vəli***

# İnternet ev yıxır, ya ev qurur?

*"Valideynlərim internetdə tanış olduğum qıza elçi getmək istəmirdilər"*

Bir zamanlar qız bəyənmək üçün qohum-qardaş toyunda subay qızları süzgəcdən keçirən, öz bacısından, qızın rəfiqəsindən xəbər göndərən oğlanlar indi evlənəcəyi qızı internetdə axtarır, axtarır, tapır, bir dəfə "dürtmələyir", ikinci dəfə "like" edir, üçüncüdə paylaşımına rəy yazır, lap axırda da "inbox"una ürəyini boşaldır. Bəli, daha qız bəyənmək üçün universitet qapılarında qızların dərsdən çıxmasını gözləməyə, toya-düyünə getməyə ehtiyac yoxdur. Bu, gənclərin ürəyindəndir, amma valideynlərin çox da ürəyinə yatmır.




## Ünsiyyət problemi yaradırsa...

XXI əsrdə texnologiyanın inanılmaz sürətli inkişafı bizə müsbət təsiri ilə yanaşı mənfi təsirini də nümayiş etdirdi. İnternet sayəsində tanınmış kitabxanaların elektron məhsullarını gözdən keçiririk, satışda olmayan kitabların elektron versiyasını əldə edirik, uzaqda olan yaxınlarımızı canlı görə bilirik, yeni dostluqlar və münasibətlər əldə edə bilirik. Bütün bunlar müsbət xüsusiyyətlərdir, yaxşı bəs o zaman internetin bizə verdiyi mənfi tərəflər hansılardır?





Bir vaxtlar insanlar üzbəüz ünsiyyətdən zövq alırdılar, amma indi virtual ünsiyyət daha çox dəbdədir. Ofisdə bir-biri ilə ünsiyyət qurmağa "ərincəklik" edən iş yoldaşları bir-birinə sözü olanda facebook-dan mesaj yazırlar. Bir çox insan virtual məkanda hisslərini daha yaxşı ifadə etdiklərini deyirlər. Mütəxəssislər isə bunu ünsiyyət problemi ilə əlaqələndirirlər. Hətta bəzi sosioloqlar internet vasitəsi ilə ünsiyyət qurmanın fərdin real şəxsi ünsiyyət qurmasındakı ən böyük sədd olduğunu düşünürlər.

## Evdən qaçan qızlar internetin qurbanıdır?

İndi qəzet və saytlarda, bəzən televiziyalarda internetdə tanış olduğu oğlanla qaçan yeniyetmə qızlar barədə olduqca çox məlumat olur. Yaşlı nəsil qətiyyətlə əmindir - internet yeniyetmələri yoldan çıxarır. Gənc nəsil isə internetin bu məsələdə günahsız olduğunu deyir. Məsələ burasındadır ki, gənc nəsil evdən qaçmaq istəyən yeniyetmənin internetsiz də bir yol tapa biləcəyinə əmindir.



Psixoloq Məhəbbət Həsənzadə deyir ki, bu məsələyə əsasən yaşlı nəsil neytral, bəzən də ciddi olaraq etiraz edir: "Bəzən də olur ki, yaşlı nəsilə oxşamaq istəyən, sanballı və ciddi görünmək arzusunda olan konservant cavanlar da virtual tanışlığa neqativ münasibət bəsləyir. Onların yaxınlarının, doğmalarının, tanışlarının arasında virtual tanışlıqdan zərər çəkən insanlar ola bilər, elə buna görə də neqativ yanaşa bilərlər". Psixoloq deyir ki, tanışlığın necə, hansı şəraitdə və harda baş verməsi vacib deyil. Daha vacib olan tanış olan insanların bu tanışlıqdan nələr gözləməsi və nələr əldə etməsidir.

## Valideynlər internetdən tapılan gəlini istəmir

Qeyd edək ki, ölkəmizə internet yeni-yeni "ayaq açanda" virtual məkandan tanışlıq üçün indi olduğu qədər çox istifadə edilmirdi. İnternet-klublarda daha çox oyunlar oynayan gənc nəsil illər sonra söhbət saytlarını, "çat"ları kəşf etdi, daha sonralar sosial şəbəkələr həyatımıza girdi. Bununla da bir vaxtlar "çat"larla kifayətlənməli olan gənc nəsil indi sosial platformalarda hər cür görünüşə, əxlaqa, mühitə, çevrəyə malik insanların olduğu məkanlarda vaxt keçirirlər.

Psixoloq deyir ki, əvvəllər gənclərin internetdə tanış olub evlənmək istəyi çox vaxt elə istək və arzu olaraq qalırdı. Çünki valideynlər bu cür tanışlığa və evliliyə razı olmurdular: "Onlar adət etməyiblər ki, hansısa bir qurğu vasitəsi ilə kiminləsə yazışasan, tanış olasan, sonra da onunla sevgi münasibətin olsun. Çünki böyüklərin çoxusu real ünsiyyət formasına üstünlük verir və haqsız da deyillər. Virtual məkandakı söhbətin real və ya yalan olmasını aydın etmək olmur. Aldanmaq təhlükəsi çoxdur. Amma indi sosial çevrəsi internetdə formalaşan insanlar çoxdur və bu çevrəsi zamanla real çevrəyə çevrilir. Yəni, əvvəl yaranan qorxular indi əsassız olur".



## Yarını internetdə tapan: "Xoşbəxtəm"

Həyat yoldaşını internetdə, daha dəqiq ifadə etsək, "Facebook"da görüb bəyənən, elçi düşən və evlənən Habil Müsəllimovla həmsöhbət olduq. O, 11 il əvvəl evlənib. Müsahibimiz deyir ki, münasibətlər əvvəlcə sadəcə virtual idi, elə indiki həyat yoldaşına da eşqini onu realda görmədən bəyan edib: "4-5 ay idi ki, virtual tanış idik, söhbət edirdik internetdə, bir gün ona sevgimi etiraf edəndə dedi ki, məni realda görməmisən, bəlkə şəkildəkindən fərqliyəm. Dedim ki, mən sənin yazı tərzindən, söhbətindən bəyənmişəm, realda görsəm də fərq etməz. Həqiqətən də, 6 aydan sonra görüşdük, fikrim dəyişmədi".

Müsahibim deyir ki, ailəsi oğullarının gələcək gəlinlə internet vasitəsi ilə tanış olduğunu biləndə etiraz ediblər: "Əvvəlcə etiraz elədilər. Valideynlərim dedi ki, yaxşı qızın çatda nə işi var. Axı əvvəllər "çat"lar əxlaqsızlıq yuvası kimi başa düşülürdü, internetə girən qıza deyirdilər yaxşı qız deyil. Valideynlərim də elə bilirdi ki, internetdə ancaq veyil, avara insanlar vaxt keçirir. Amma tanıyandan sonra gördülər ki, o yaxşı bir ailənin qızıdır və intenrnet pis yer deyil. Evləndik, onunla xoşbəxtəm. Məşhur misalda deyildiyi kimi, bıçaqla çörək də doğramaq olar, adam da öldürmək. İnternetdən istifadə də beləcədir - gənclərin öhdəsinə bu məsələdə çox şey düşür."

***Lalə Mehralı***

---

# Bakcell Əhmədlidə yeni mağaza açdı

Ölkənin ən böyük özəl mobil operatoru olan Bakcell yeni mağazasını abunəçilərin ixtiyarına verib. Bununla birlikdə şirkət öz texnoloji yeniliklərini hər kəs üçün daha da yaxın etmək imkanı yaradıb. Əhmədli metrostansiyasının yaxınlığında yerləşən yeni mağazada modern atmosfer, müasir standartlara cavab verən elektron növbə sistemi ilə yanaşı, abunəçilərin Bakcell-in məhsulları ilə yaxından tanış ola biləcəkləri elektron guşədə əməliyyatları sürətlə həyata keçirmək mümkün olacaq. Mağazada premium zəng xidməti olan VoLTE-nin aktivləşdirilməsi, yeni nəsil sim texnologiyası







- eSim satışı, tarif və sürətli internet paketlərinin aktivləşdirilməsi ilə yanaşı 10 növdən çox xidmət təqdim olunur. "Bakcell olaraq hər zaman innovasiyanın və rəqəmsallaşmanın gücünə inanmışıq. Əhmədli filialımız da bu gücü sizə daha yaxın etmək üçün bir vasitədir. Sərhədləri aşaraq innovativ yenilikləri sürətlə ölkənin hər nöqtəsinə çatdırmaq əsas hədəflərimizdən biridir." - deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib. Ölkənin dörd bir yanında "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

# Laçınlıları el-obasına çatdıran karvanlar

Köç karvanları el-obasından didərgin düşənləri mənzil başına aparır. O mənzil başına ki, illər öncə odalov içində bu mənzilləri ah-nalə ilə tərk etmişdilər. Evlər gülləbaran olunur, el-oba virana dönürdü. Ömürlərini zəhmət ilə keçirən və özlərinə yurd-yuva quran zəhmətkeş insanların yaşayış yerini dağıdan azğın düşmən nə qocaya, nə qadına, nə də uşağa məhəl qoymurdu. Özgə torpağında hökmranlıq etmək niyyətində olanlar düşünmürdülər ki, zaman yetişəcək bu insanların ah-naləsi yerdə qalmayacaqdır. Hər şey üçün cavab verməli olacaqlar. Minlərlə insanın həyatına qəsd edənlərin məhkəməsi ağır olur. Zaman yetişdi və Azərbaycan öz torpaqlarını mənfur düşməndən azad etdi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika 44 günlük Vətən müharibəsində döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi.

Bu gün nisgilli ömür yaşayalar öz yurd yerlərinə qayıdırlar. Yenidən həyat gülür, yaşıb-yaratmağa bir çağırış vardır. Növbəti köç



ciə idi, - deyərək bunun AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti olduğunu qeyd etmişdi: "AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdir və bu, daha böyük faciələrə yol açdı. Ondan bir il keçməmiş - 1993-cü ilin ap-







karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə Bakı və Sumqayıtda məskunlaşmış 16 ailə, yəni 59 nəfər yola düşüb. Bu gün, həmçinin Beyləqan və Şamaxı rayonlarında məskunlaşmış daha 4 ailə (11 nəfər) isə yaşadıqları ərazidən yola salınacaq. Onlar Horadiz şəhərində köç karvanına qoşularaq bir yerdə hərəkət edəcəklər.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb. Bununla da Laçın şəhərində 315 ailənin (1205 nəfər) daimi məskunlaşması təmin ediləcək.

## "BİZ LAÇINI HƏM DÖYÜŞ MEYDANINDA, HƏM SİYASİ YOLLARLA QAYTARDIQ"

Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Əlbəttə ki, 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrasturuktur yaradılır. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdi. "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq" - deyən Cənab Prezident döyüş meydanında əldə edilmiş parlaq qələbənin bu gözəl nəticəyə gətirib çıxardığını və üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçının bizə qaytarıldığını qeyd etmişdi.

"Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin ermənilərin işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır" deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

## "LAÇININ İŞĞALI ÖLKƏMİZ ÜÇÜN BÖYÜK FACİƏ İDİ"

18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb.

Dövlət başçımız Laçının işğalı ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi, - deyərək bunun AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti olduğunu qeyd etmişdi (...) relində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur".

## HAVA LİMANININ YERİNİ MÜƏYYƏN EDƏRKƏN BÖYÜK ÇƏTİNLİKLƏRLƏ ÜZLƏŞMİŞDİK

Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb. Bu gün Şuşamızda, Zəngilanda, Laçında və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevriləcəkdir. Artıq Laçın yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. "O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək", - deyə Prezident qeyd edib.

Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişaf layihələrin reallaşlmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrasturuktur yaradılır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qələbələrimizin təməlində Heydər Əliyevin müdrik siyasəti dayanır

**Prezident İlham Əliyev 2023-cü ilin may ayının 10-da xalqa müraciətində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu yolla Azərbaycanın bu gün uğurla getdiyini, ölkəmizin 2003-cü ildən indiyədək sürətli sosial-iqtisadi inkişaf və tərəqqi dövrü yaşadığını bildirib. Dövlətimizin başçısı, eyni zamanda, neçə-neçə illər bundan sonra da respublikamızın uzunmüddətli strategiya və daxili resurslar əsasında inkişaf edəcəyini əminliklə vurğulayıb.**

Ölkə rəhbəri daha sonra deyib: "Bu gün sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda güclü imkanlarımız, maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq "

Müraciətdə son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmadığını, bu dövr ərzində iqtisadiyyatın 3 dəfədən çox artdığını, ümumi daxili məhsulun (ÜDM) nominal həcminin 22 dəfə artaraq 133,8 milyard manata çatdığını bildirib. Bu dövrdə ölkə əhalisinin gəlirləri 13,7 dəfə, strateji valyuta ehtiyatları isə 2023-cü ilin aprel ayında 2003-cü ilə nəzərən 41 dəfədən çox artıb (2003-cü ildəki 1,6 milyard dollardan 65,9 milyard dollara çatıb).

İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib.

Təkcə yuxarıda sadalanan göstəricilərə əsaslanıb qeyd edə bilərik ki, ötən 20 il Azərbaycanın müasir tarixinə iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş mərhələsi kimi daxil olub. Bu dövr ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf yolu keçən ölkə kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Azərbaycan Cənubi Qafqazın və ətrafın iqtisadi coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb.

Respublikamız Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirib. Bütün bunların sayəsində təbii olaraq respublikamızın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət nəticəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib.

Bu müddətdə regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan özünü etibarlı tərəfdaş kimi təsdiq edə bilib. Beləliklə, Prezident İlham Əliyevin qarşıya qoyduğu müasir dövlət, dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

Azərbaycanda elektroenergetika sahəsi də sürətlə inkişaf edir. Son 20 il ərzində respublikada inşa olunan 40-a yaxın elektrik stansiyasının generasiya gücü təqribən 3400 meqavata bərabərdir.

Enerji təhlükəsizliyinin təmin edilməsi, iqtisadiyyatın və əhalinin elektrik enerjisi ilə dayanıqlı təchizatı siyasətimizin ən prioritet istiqamətlərindən olub. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi, "Şahdəniz" qaz yatağının mərhələlərlə istismarı Azərbaycanın dünyanın neft-qaz bazarına daxil olmasına zəmin yaradıb. "Əsrin müqaviləsi"nin müddəti Azərbaycan üçün əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılıb. Şübhəsiz ki, sadalanan uğurların qazanılmasında ölkədə dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlıq mühitinin yaradılması, dövlətimizin çoxşaxəli siyasətinin xalq tərəfindən dəstəklənməsi başlıca amillərdəndir.

Ardıcıl və sistemli surətdə həyata keçirilən şaxələndirmə siyasəti, sahibkarlıq mühitinin yaxşılaşdırılması üzrə görülən tədbirlər ölkə sənayesinin yeni inkişaf mərhələsinə daxil olmasına zəmin yaradıb. Sənayenin inkişafına dair Dövlət Proqramı təsdiq edilib və icrasına başlanılıb. Ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və sair sahələr yaradılıb.



*Nazim İsmayılov*
*Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü*

İqtisadiyyatımızın güclənməsi nəticəsində müharibə şəraitində yaşayan ölkəmizdə nizami ordu quruculuğu sahəsində böyük uğurlara imza atılmışdı.

Silahlı Qüvvələrin döyüş hazırlığı yüksək səviyyəyə çatdırılmış, ordumuz müasir hərbi texnika ilə təchiz edilmişdir. Bununla yanaşı, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusu hazırlanmışdır. Ən önəmli addımlardan biri isə Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması olmuşdur.

Belə ki, 2003-cü ilin oktyabr ayının 15-də Ulu Öndərin tövsiyəsi və xalqın etimadını qazanaraq prezident seçilən Ali Baş Komandan İlham Əliyev ötən illər ərzində milli ordu quruculuğuna, Silahlı Qüvvələrin modernləşməsinə xüsusi diqqətlə yanaşmış, bu gün döyüş meydanında düşməni darmadağın edən, güclü, qüdrətli, məğlubedilməz Azərbaycan Ordusunu formalaşdırmışdır. Peşəkar Ordumuz bu gün dünyanın 50 ən güclü ordusu sırasındadır ki, bu da birbaşa Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilmiş məqsədyönlü siyasətin nəticəsidir. 44 günlük Vətən Müharibəsinin elə ilk günlərindən aydın oldu ki, Azərbaycan ərazilərini işğaldan azad etmək üçün yetərli hərbi, siyasi gücə, bu vəzifənin öhdəsindən gəlmək əzmində olan peşəkar orduya malikdir. Fərqli dünyagörüşü olan sosial qrupların, siyasi təşkilatların, milli mənafeləri siyasi mənafelərdən üstün tutan bəzi müxalifət qüvvələrinin çağırışları cəmiyyətin qısa müddətdə yumruq kimi birləşməsinə səbəb oldu. Milli birlik, ilk növbədə, qardaş Türkiyə Cümhuriyyəti başda olmaqla Pakistan, İsrail kimi dövlətlərin Azərbaycana siyasi və mənəvi dəstək verməsi minnətdarlığa layiqdir.

Müasir silahlarla silahlanmış, yeni dövrün müharibə qaydalarına uyğun olaraq təlim keçmiş, vətənpərvər şəxsi heyətə malik olan ordumuz müharibəyə başlayan gündən döyüş meydanında qələbələr qazanmağa başladı. Qısa müddət ərzində müqaviməti qırılan düşmən ordusu bütün cəbhə boyu sürətlə geri çəkilməyə məcbur edildi. Hərbi, siyasi, diplomatik məsələlərdə milli məfkurəyə əsaslanan 44 günlük müharibə dövründə ərazilərimizin əksəriyyət hissəsi, başlıcası isə müqəddəs Şuşa şəhərimiz işğaldan azad edildi. Sentyabrın 27-dən noyabrın 9-dək olan 44 gün ərzində yalnız Qarabağ münaqişəsi ilə bağlı olan status-kvo dəyişmədi, həm də bu regionun ümumi geopolitik mənzərəsi dəyişdi.

Bu mənzərəni Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, Azərbaycan Ordusu, fədakar Azərbaycan əsgəri dəyişdirdi. Ordumuzun bu qəhrəmanlığı, bu şücaəti çoxları üçün gözlənilməz oldu. Nə Ermənistan, nə də bu ölkənin havadarları Azərbaycan Ordusunun belə sürətlə irəliyəcəyini, hər cür hərbi dəstək alan erməni ordusunun bu səviyyədə darmadağın ediləcəyini gözləmirdi. Rusiya prezidenti Vladimir Putin müsahibələrinin birində, "Türkiyə Azərbaycana dəstək verərkən, niyə Rusiya Ermənistana uyğun dəstəyi vermədi" sualına cavab olaraq Rusiyanın Ermənistana odekvat dəstək verdiyini, bu sahədə balansın təmin edildiyini, lakin sonda döyüş meydanında fərqli mənzərənin yarandığını bildirdi.

Bu fərqli gerçəkliyi döyüş meydanında dostları sevindirən, düşmənləri pərişan edən Güclü Rəhbər, Azərbaycan Ordusu, öz ordusunun arxasında dayanan Azərbaycan xalqı yaratmışdı. 44 günlük müharibə dövründə əldə edilən uğurların qazanılmasında payı olanların sayı çoxdur. Bu mühüm dövrdə hər kəsin dövlətimiz üçün xidmətləri zaman-zaman dəyərləndiriləcək.

İndidən bəlli olan və hər kəsin qəbul etdiyi həqiqət isə odur ki, bu, qələbələrin əsas müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun rəhbərlik etdiyi Rəşadətli Azərbaycan Ordusu, əsgər və zabitlərimiz, vətənin azadlığı naminə həlak olan, xatirələri heç vaxt unudulmayacaq şəhidlərimizdir. Onların şücaəti nəticəsində düşmən məğlub olaraq ağ bayraq qaldırdı.

Bundan sonra Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2020-ci il noyabrın 10-da məlum üçtərəfli Bəyanat imzaladırlar. Bəyanata görə, Azərbaycan ərazisində heç bir erməni silahlı qüvvələri, birləşmələri qala bilməz, onlar çıxmalıdırlar. Lakin sözü ilə əməli heç zaman üst-üstə düşməyən Ermənistan yenə də öz mənfur niyyətini ortaya qoydu. Azərbaycan özünün sülh səylərini sonadək davam etdirdi. Hətta Ermənistanın "blokada" və "Laçın dəhlizi" ilə bağlı şou yaratdığı zaman ölkəmiz Qarabağ ermənilərinə öz humanitar dəstəyini əsirgəmədi. Lakin Ermənistandakı revanşist qüvvələr, separatçılar və İrəvanı dəstəkləyən havadarları yaranmış vəziyyətin sülh yolu ilə başa çatmasına imkan vermədilər.

Separatçıların növbəti terror əməlinə cavab olaraq, Azərbaycan sentyabrın 19-da Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri həyata keçirdi və Müzəffər Ordumuzun gücü sayəsində bu əməliyyatı da uğurla tamamladı. Lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması ölkəmizin böyük uğurudur. Qarşıya qoyulan hədəflərə qısa zaman kəsiyində nail olunması Azərbaycanın növbəti və qəti tarixi Qələbəsidir. Bu, bir daha göstərir ki, Azərbaycan regionda prosesləri diktə edən tərəfdir, sülhün və sabitliyin əsas təminatçısıdır. Bu, eyni zamanda, Prezident İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi, dövlətimizin başçısının ətrafında "dəmir yumruğ"a çevrilmiş xalqımızın növbəti tarixi Zəfəri oldu.

Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin, qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərksilah olunması, qeyri-qanuni rejimin buraxılması, paralel olaraq bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi ilə bütün ölkə ərazisində suveren hüquqlarımız tam bərpa olundu. Ölkə başçısı İlham Əliyev işğaldan azad olunmuş bütün ərazilərimizdə - Xocalıda, Xocavənddə, Əsgəranda, Suqovuşanda, Xankəndidə üçrəngli bayrağımızı ucaltdı.

Azərbaycan Respublikasının Prezidenti, Qüdrətli Ordumuzun Qəhrəman Sərkərdəsi İlham Əliyev 2003-cü ildə prezident seçildiyi gündən düz 20 il sonra 2023-cü ilin oktyabrın 15-də Xankəndidən xalqa tarixi müraciətini etdi. Müraciətdə bildirdi: "Bütün bu qələbələrimizin səbəbkarı ulu öndər Heydər Əliyevdir. Məhz onun müdrik siyasəti nəticəsində Azərbaycanın bütövlüyü qorundu, bu gün də ərazi bütövlüyümüz təmin olunub. Çox sevindirici haldır ki, bunlar Ulu Öndərimizin 100 illiyi qeyd olunan dövrdə baş verir."

Bəli, cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bütün uğurlarımızın başında Heydər Əliyev şəxsiyyəti, Onun müdrik siyasəti dayanır. Bir anlığa 1993-cü ilin iyun ayını gözümüzün qarşısına gətirəndə dərk edirik ki, elə bir vəziyyətdə olan ölkəni Ulu Öndər necə də müdrikcəsinə vəziyyətdən çıxartdı. Heydər Əliyev xalqın təkidli tələbi ilə 2-ci dəfə hakimiyyətə qayıtdıqdan sonra öz xalqı, doğma vətəni üçün nələr etdiyinin bir neçəsini sıraya düzək:

- Azərbaycanda başlamış vətəndaş müharibəsinin qarşısını aldı;
- Azərbaycan torpağını etnik əlamətlərə görə parçalanıb yox olmaq təhlükəsindən xilas etdi;
- 1994-cü ilin oktyabr və 1995-ci ilin Mart qəsdlərinin qarşısını aldı;
- 1994-cü ilin may ayında cəbhədə atəşkəsə nail oldu;
- 20 sentyabr 1994-cü ildə Ulu öndərin tikdirdiyi "Gülüstan" sarayında "Əsrin müqaviləsi" imzalandı (7 ölkənin 11 məşhur şirkətləri ABŞ, Rusiya, Böyük Britaniya, Yaponiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanı neft şirkətlərinin iştirakı ilə konsorsium Azərbaycan Beynəlxalq əməliyyat şirkəti yaradıldı);
- 1995-ci ilin 12 noyabrında referendum keçirilərək müstəqil Azərbaycanın konstitutsiyası qəbul olundu;
- 9 may 1945-ci il Qələbə Gününü bərpa etdi;
- 1996-cı ildə aqrar islahatlara start verildi;
- Sahibkarlığı inkişaf etdirmək məqsədilə xırda və orta dövlət müəssisələrin özəlləşdirilməsi həyata keçirildi;
- 1999-cu ilin noyabrında ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin çəkilişi əsnasında dövlətlərarası müqavilə imzalandı;
- 2002-ci ilin sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin özülü qoyuldu;
- Ordu quruculuğu sahəsində peşəkar hərbçilərin hazırlanması, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi əsas vəzifə kimi qarşıya qoyuldu;
- Qaçqın və Məcburi köçkünlərin sosial-mənzil-məişət problemlərinin həllinə xüsusi diqqət yetirildi, çadır şəhərcikləri ləğv olundu;
- Ulu Öndər Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət - Heydər Əliyev dövlətçilik məktəbini yaratdı;
- Bu məktəbdə İlham Əliyev kimi Siyasi Lideri, Müzəffər Ali Baş Komandanı yetişdirdi.

Bəli, 20 il bundan əvvəl 2003-cü ildə Heydər Əliyev siyasətini davam etdirmək missiyası Ulu Öndərin tövsiyəsi və xalqın iradəsi ilə cənab İlham Əliyevə etibar olundu. Cənab Prezident İlham Əliyev ötən 20 il ərzində Ulu Öndərin siyasətinə sadiq qalaraq Azərbaycanı dünyada inkişaf etmiş güclü bir ölkəyə çevirdi, görkəmli dövlət xadimi Heydər Əliyevin ən böyük arzusu olan doğma Qarabağımızı düşmən tapdağından azad etdi. 2020-ci ilin noyabr ayının 8-də Şuşa azad olan günün səhəri Fəxri xiyabana gedərək Ali Baş Komandan kimi Ulu Öndərin məzarı önündə O Təkrarsız Şəxsiyyətə raport verdi.

Bütün bunlar Heydər Əliyevin Azərbaycan dövlətinin xilaskarı və qurucusu olmasının təsdiqidir.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə ölkəmizin iqtisadi, siyasi mənəvi inkişafına xidmət olub", - deyən Ulu Öndər Heydər Əliyevin ölkəmizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləmişdir. Nə qədər bütöv, müstəqil Azərbaycan var, Heydər Əliyev ideyaları yaşayacaqdır.

# Hamiləlikdə kosmetika: həm təhlükəli, həm zərərli

## Nə ənlik, nə kirşan, nə saç boyası, nə də ətirlər övladınızdan daha dəyərli deyil

***Qidalanma, həyat tərzi, ətraf mühit, psixologiya - bütün faktorlar dünyaya gələcək körpənin sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edir. Bütün bunlardan əlavə ananın öz bədəninə qarşı münasibəti və davranışı da vacib məsələdir. Bir çox qadının bədənə qulluq vasitələri, kosmetik məhsullar düşkünü olduğunu nəzərə alaraq doğulacaq körpə üçün həyati təhlükə daşıması barədə bu yazını qələmə aldıq.***

### Zərərli vərdişlər siyahısına kosmetikanı da əlavə edin

Əksər qadınlar həm gənc, həm də yaşlılıq dönəmində kosmetik vasitələrdən istifadəni maksimum səviyyədə edirlər. Gözəl, ya kifir - fərq etməz, bizim ölkədə birmənalı olaraq bü-



tün qadınlar kosmetikanın əsiridir. Çox az qadın var ki, onun zərərindən xəbərdar olsun. Hamiləlikdə kosmetik vasitələr isə anadan əlavə körpəyə də zərər verir.

Düzdür, həkim xəbərdarlığından sonra hamiləlik dövründə bir çox qadın körpənin sağlamlığına təhlükəli olan bir çox vərdişindən əl çəkir, məsələn siqaret çəkirdisə imtina edir, içki içirdisə daha içmir. Amma çox qadının ağlına belə gəlmir ki, hər gün üzlərinə çəkdiyi krem, istifadə etdiyi ətir, dodaqlarına, dırnaqlarına və saçlarına çəkdiyi boya da körpənin inkişafına ən az siqaret və içki qədər zərərlidir.

Çox qadının ən az ayda bir dəfə istifadə etdiyi saç boyalarının zərərləri barədə kifayət qədər çox yazırıq. Saç boyalarının tərkibində saysız-hesabsız kimyəvi maddələr olduğundan həkimlər və gözəllik ekspertləri hamilə qadınlara qəti surətdə saç boyamamağı məsləhət görürlər. Bu bətndəki körpənin zəhərlənərək ölməsinə, gec bilindiyi təqdirdə ananın qanına keçərək qadının da ölməsinə səbəb ola bilər.

### Həkim: "Pasiyentlərim müğənniyə oxşayır"

Ginekoloq Şəkər Xasıyeva deyir ki, hamiləlik fizioloji bir proses olsa da, bir qadın üçün həyatının ən məsuliyyətli və təhlükəli dövrüdür: "Zarafat deyil, bir bədəndə yeni bir canlı yaranır. Ona maksimum diqqət göstərmək, ehtiyatlı davranmaq lazımdır, buna görə də bu dövrdə gələcək ana gərək öz sağlamlığına fikir versin, çünki onun sağlamlığı körpəsinin təhlükəsizliyidir".

Həkim deyir ki, hamiləlik dövründə kosmetik vasitələrdən istifadə etmək körpənin sağlamlığı baxımından daha məqsədə uyğundur: "Çox olur ki, həkim müayinəsinə gələn qadınları səhnəyə çıxan müğənni kimi bəzənən görürük. Hər dəfə deyirəm, istifadə etməmələrini məsləhət görürəm, amma onlar üçün bu, sadəcə, boş fərziyyədir. Bir daha təkrarlayıram, hamiləlik dönəmində saçlar üçün rənglərdən, saç tonunu açmaq üçün istifadə edilən kimyəvi məhlullardan, dırnaqlar boyasından, hətta bəzi krem və şampunlardan istifadə etmək doğru deyil".

Tibb eksperti Sadiq Haşimov deyir ki, hamiləlik dövründə müxtəlif kremlərə, şampunlara qarşı yaranan allergiyalar anadan dölə ötürülə, gələcəkdə uşaqda müxtəlif allergik xəstəliklərə də səbəb ola bilər: "Məsləhətimiz odur ki, hamilə qadınlar hamiləlik dövründə kimyəvi tərkibli, mənşəyi məlum olmayan kosmetikalardan istifadə etməsin, saçlarını rəngləməsin, mümkün olduğu qədər tərkibi bəsit şampunlardan istifadə etsinlər. Çünki əksər kosmetik vasitələrin tərkibində metilizotiozalin dediyimiz kimyəvi maddə var ki, bu maddə dəridən qadının qanına sorularaq, dölün beyninə, sinir sisteminin inkişafına çox ciddi təsir edir. Əqli, fiziki qüsurlu uşaqlar doğula bilər. Hətta doğulur da, amma heç kim kosmetikanın təsirini hesablamır".

### Ətir hamilə qadınlar üçün daha təhlükəlidir

Ətirlərin tərkibində həddindən çox kimyəvi maddələr olduğundan, həkimlər onları allergik dəri reaksiyalarına səbəb olan kosmetikalar arasında birinci yerdə qeyd edirlər. Həkim-dermotoloq deyir ki, hamiləlik dövründə qadınların qoxulara qarşı həssaslığı bədənin təbii instinktidir: "Fikir versəniz görərsiniz ki, bəzi qadınlar yemək, bəzisi benzin, bəzisi hansısa fəqli qoxuya qarşı aqressiv olur. Bütün hamiləliyi boyunca mətbəxə girə bilməyən qadınlarımız var. Ətirlər də eynən belədir, onların qoxusu da dölü narahat edir, sadəcə daha xoşagələn qoxusu olan maddələr qatılır deyə qadın ona qarşı aqressiya hiss eləmir".



Qeyd edək ki, bütün növ ətirlərin tərkibində "paraben" adlı təhlükəli maddə var. Kosmetik vasitələr arasında ən çox ətirlərin istehsalında istifadə edilən bu maddə kansorogendir və dünyanın bir çox ölkəsində istifadəsi qadağan edilib.

### Əlamətləri necə anlayaq?

Hamiləlik müddətində orqanizmdə yeni proseslər meydana gəlir, bədənin tanımadığı əlamətlər hiss edilir. Bir çox hamilədə immunitet, hormon və qan-damar sisteminə təsir edən problemlər meydana gəlir. Bu dəyişikliklər həm qadının, həm də dölün dərisində baş verən patoloji və fizioloji proseslərin başlanğıcı da bilər. Kosmetikaya aludə olan qadınlarda saç tökülməsi, dəri qızartıları, bədəndə şişkinlik və ağırlar da bu əlamətlərdəndir.

Dermotoloq Sahilə Qazaxova deyir ki, əgər qadının bədənində, ələxsus da qarın və ayaq nahiyəsində xırda qırmızı ləkələr yaranırsa, dəridə çatlar olursa bu kosmetikadan zəhərlənmə deməkdir: "Bütün növ kosmetik vasitələr teratojendir, yəni körpədə bu və digər formada anomaliya yaradır. Bir çox kosmetik vasitə kanserogendir, yəni ən dəhşətli xərçəng xəstəliklərinə səbəb olur. Həmçinin bütün kosmetika məhsulları toksokoloji təsirə malikdir. Deməli, nəinki hamiləlikdə, hətta normal zamanlarda belə kosmetik vasitələr bizə zərər verir".

### Hamiləlik zamanı gözəllik əməliyyatlarından çəkinin

Botoksun, pilinqin, silikon tətbiqinin çox yayıldığı dövrdə yaşayırıq, ölkəmizdə bu cür vasitələrdən istifadə edən kifayət qədər çox qadın var. Xüsusilə də, doğuşdan sonra qarın dərisini gərdirmək istəyən qadınlar çox olur. Həkimlər deyir ki, hamiləlikdə və laktasiya dövründə botoks tətbiqi körpəyə ciddi zərər verir. Həkimlər bildirir ki, hamiləlikdən sonra lazımı idmanı etsə və dəriyə təbii qulluğu gerçəkləşdirsə hər qadın təbii yolla hamar dəriyə sahib olar. Həmçinin hamiləlik zamanı qarında yaranmış çatları adi zeytun, badam yağı ilə masaj edərək yox etmək mümkündür.

Hamiləlikdə silikon da ciddi problemlərdən biridir. Bəzi qadınlar daha gözəl görünmək üçün, qırışları aradan qaldırmaq və bəzi bölgələri dolğunlaşdırmaq üçün xüsusi gellərdən istifadə edirlər. Düzdür, bu əməliyyatlarda istifadə edilən məhlula görə standartlaşdırma sertifikatları var. Amma bu təhlükəsizliyə təminat verə bilməz. Tərkibində süni kimyəvi birləşmə olan bütün növ mayelər döl üçün təhlükəlidir.

Hamiləlik zamanı tatuaj da problemli məsələlərdən biridir. Çünki bir çox qadın bədənini olmasa da, ən azı qaşlarını döymə üsulla yenilətmək istəyir. Bu üsulun zərərləri barədə bir müddət əvvəl qəzetimizdə məlumat vermişdik. Dəri xərçənginə birbaşa yol olan tatuajın hamilə qadınlara tətbiqi heç bir halda doğru deyil. İynə vasitəsi ilə QİÇS-ə yoluxan yüzlərlə tatuaj qurbanı olduğunu unutmamalıyıq.

### Hamiləlik özü gözəllikdir

Hamiləlikdə dəri rəngi dəyişə, üzdə xırda çil və ləkələr əmələ gələ bilər. Hətta el arasında hamilə olan qadınların üzündəki ləkələrə görə bətnindəki körpənin qız olmasını da bilənlər olur. Yaşlı qadınlar qadının hamiləlikdə gözəlləşdiyini görəndə "oğlun olacaq", üzünün ləkələndiyini görəndə isə "qızın olacaq" deyir. Rəvayətlərə görə, qız övlad anasının gözəlliyini əlindən alır.

Hamilə qadınlar dərilərində yaranmış ləkələrdən çox narahat olurlar. Təbii məhsullardan hazırlanmış maskalar bu vəziyyətdə ən yaxşı köməkçi hesab oluna bilər. Bu maskaları tanıdığınız kosmetoloqdan sifariş edə bilərsiniz və yaxud da evdə özünüz hazırlaya bilərsiniz. İndi internetdə, gözəllik üçün dərc olunmuş kitab-jurnalda kifayət qədər təbii üz maskalarının reseptini görə bilərsiniz.

Qadınların bir çoxu masaj aludəsidir.



Qeyd edək ki, masaj hamiləlik dövründə də edilə bilər, hətta qan dövranınızın normal işləməsi üçün bu xeyirlidir. Ancaq masaj edənin professional olması mütləqdir, əks halda dölə zərər verə bilərsiniz. Hamilə qadınlar üçün təyin edilmiş bir çox masaj növü var, amma hamilə qadın masajını hər kəsə etibar etmək olmaz. Bu cür masajlar yalnız bu sahədə tibbi biliyi və praktiki təcrübəsi olan peşəkar həkimlərə etibar edilməlidir.

***Lalə Mehralı***



## FELYETON

### Niyə ölmək istəyirik...

İndi durub kiməsə sual versən ki, niyə ölmək istəyirsən? Deyəcək ki, canın ölsün, mənə də qurban olasan, belə sən öləsən, gəlim halvanı yeyim, əzizin ölsün, ehsana gəlim...

Amma biz əslində ölmək istəyirik. Yuxarıdakı sual ağır gəlsə də, verəcəyimiz təqdirdə cavabımızı məhz o cür almalı olsaq da, mən deyim, siz qulaq asın ki, biz niyə ölmək istəyirik. Ay qardaşlar, ay bacılar, marketlərdə yağlar satılır, əsl demək indiki zəmanədə bir az qəbahət olar, ortabab kərə yağından dəfələrlə ucuz. Əksər insan da marketə girən kimi qaçır o yağların üzərinə.

Baxırsan-baxırsan, deyirsən ki, biz həqiqətən də ölmək istəyirik.

Srağagün marketlərdən birində sosiska vardı, endirimə düşmüşdü. Bir kiloqramı əvvəl 9, indi 6 manat olmuşdu. Daşıyanın sayı vardı, hesabı vardı... Hələ əvvəlki qiymətini düşünüb öz-özümə dedim, görəsən, bu sosiska nə ətindən hazırlanıb ki, bir kiloqramı 9 manata başa gəlir. Çox düşündüm, amma cavab tapa bilmədim.

Sosiskanı daşıyanlara baxa-baxa dedim ki, görəsən, biz niyə ölmək istəyirik?

O günləri qonşudayam. Kənddən anası zəng vurub deyir ki, bəs anan ölsün, bir gələn də yoxdur ki, sizə yumurta, pendir göndərəm. Qonşum da cavab verir ki, ay ana, səni istəməyən ölsün. Yumurtanı, pendiri nə edirəm, buralar doludur. Metrodan evədək əlli yerdə yumurta qoyublar, kənd yumurtası, qiyməti də 30 qəpiyə, alıb gətirirəm. Marketlərdə elə ləzzətli pendirlər var ki, sənin pendirin onların yanında heç nədir. Ta biz o pendirlərə öyrənmişik. Göndərsən də yeyə bilmərik. Əziyyət çəkib göndərmə heç.

### Belə baxdım-baxdım, dedim, İlahi, biz niyə ölmək istəyirik?

Qohumlardan birinin qızı nişanlanıb. Ana da başlayıb qızına cehiz yığmağa. O gün deyir ki, qıza slikon yorğan-döşək, yastıq aldım. Nə az, nə çox, bu dəstə 600-700 manat da pul verib. Mən də dedim, axı elə bil sən yun yorğan-döşək hazırlamışdın qıza? Deyir, hazırlamışdım, hə, düzdür, amma indi qızlara yun yorğan-döşək vermirlər. Ta yun dəbdən düşüb.

Nə ağ dindim, nə qara. Dedim görəsən, biz niyə ölmək istəyirik?

Aradabir evə yaxın parka gedirəm. İtlər də sahibləri ilə parka gəlirlər. Nə qədər it saxlayır camaat... Saxlasınlar, əlbəttə, özləri bilər. Amma arada görürəm ki, sahibləri bu itləri basıb bağrına düz ağzından öpürlər...

Baxıram-baxıram, deyirəm, görəsən, biz niyə ölmək istəyirik?

***Mətanət Məmmədova***

# İrəvan nəticələrdən dərs çıxara bilmirsə...

*Yaxud, 7 anklav məsələsi necə həll olunacaq?*







**Fakt budur ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə torpaqlarımızın böyük hissəsi işğaldan azad edildi. 2023-cü ilin 19-20 sentyabrında isə ordumuzun həyata keçirdiyi lokak antiterror tədbirləri ilə qondarma rejim özünü buraxdı və suverenliyimiz tamamilə bərpa edildi. Lakin buna baxmayaraq, hələ də işğal altında olan 7 anklav kəndlərimiz var ki, onların da məsələsi sual altındadır. Siyasi təhlillər göstərir ki, bu gün Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasında dayanan əsas problem, məhz sərhədlərin müəyyənləşməsi ilə bağlıdır.**

### Azərbaycan nəyə görə Ermənistanın ərazilərini tanımır?

Digər tərəfdən, bu məsələnin də təxminən 1991-ci ildə imzalanan Alma-Ata bəyannaməsi kontekstində həll olunması nəzərdə tutulur. Daha dəqiq desək, ərazilərin ölçüsü hələ ki, birmənalı olaraq razılaşdırılmayıb. Ermənistan rəhbərliyinin konkret rəqəmlər ortaya qoymasına baxmayaraq, Azərbaycan heç bir zaman bu çərçivədə Ermənistanın ərazilərini tanımayıb və bu amil də ortadadır.

Mövzu ilə bağlı fikirlərini bölüşən politoloq Natiq Miriyə görə, Qazaxda və Naxçıvandakı 7 kəndimizin işğalda olması probleminin aradan qaldırılması, məhz sərhədlərin delimitasiya və demarkasiya prosesində həll olunmalıdır. Azərbaycanın irəli sürdüyü tələbi də bu reallığı əks etdirir.

### "Kimsə bu məsələyə etiraz edə bilməz"

Misal üçün, Natiq Miri hesab edir ki, əgər sülh müqaviləsi imzalanarsa, bu məsələ hüquqi cəhətdən ədalətli həllini taparsa, təbii ki, Azərbaycan bu torpaqların yenidən onun yurisdiksiyasına qayıtmasında maraqlıdır: "Ancaq məsələ bu cür həll olunmazsa və Ermənistan prosesi yenə uzadarsa, düşünürəm ki, Azərbaycan onda işğalda olan ərazilərini azad etmək hüququnu özündə saxlayır və kimsə bu məsələyə etiraz edə bilməz".

Onun sözlərinə görə, Azərbaycanın 7 kəndinin işğal altında olması faktdır və işğalda olan ərazilərin azad edilmə hüququ BMT-nin nizamnaməsində birmənalı olaraq təsdiq edilib: "Ona görə də Ermənistan yenə zamana oynamaq, prosesi sabotaj etmək siyasətinə üstünlük versə və geridə qalan 3 il ərzində baş verən proseslərdən düzgün nəticə çıxarmasa, Azərbaycan Ordusu bir neçə saatlıq əməliyyat həyata keçirəcək. Bir sözlə, Ermənistan növbəti dəfə dəmir yumruq görmək istəyirsə, prosesi yenə də uzatmağa davam etsin".

### Qazaxdakı kəndlərimiz və Naxçıvandakı Kərki kəndi artıq müzakirə mövzusu olaraq gündəmdədir

Politoloqun fikirlərini şərh edərkən həm də belə qənaərə gəlmək olar ki, rəsmi İrəvan hadisələrdən, səhvlərindən dərs çıxara bilmir. Nəticədə 7 kəndin işğaldan azadetmə prosesində hərbi ritorika yenidən gündəmə gətirir. Yəni, bu məsələ də Ermənistan rəhbərliyinin bundan sonrakı davranışından asılı olacaq. "Əgər bu məsələ diplomatik səviyyədə həll olunmayacaqsa, əmin olun ki, Azərbaycan 7 kəndimizi də bir neçə saat ərzində azad edəcək və bu ərazilərdə də özünün suveren haqlarını təmin edəcək", - deyə politoloq proqnozunu irəli sürüb.

Ən əsası isə Qazaxdakı kəndlərimiz və Naxçıvandakı Kərki kəndi artıq müzakirə mövzusu olaraq gündəmdədir. İrəvan Bakının şərtlərini qəbul etmək məcburiyyətindədir. Əks halda, hər şey indidən bəllidir - Azərbaycanın tələbləri qüvvədədir!

***Afət Tahirqızı***

# Təhsildə valideyn-məktəb münasibətlərinin rolu



Azərbaycan xalqı 1991-ci ildə Dövlət Müstəqilliyini bərpa etdikdən sonra ötən otuz iki il ərzində ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlər hər birimizi sevindirir. Müstəqilliyin ilk illərində səriştəsiz, naşı adamların hakimiyyətdə buraxdıqları yanlışlıqlar ölkəni çətin duruma sürükləsə də, xalqın israrlı tələbi ilə yenidən hakimiyyətə gələn xalqımızın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyi siyasi kurs xalqımızı nəinki çətin durumdan xilas etdi, həm də regionun lider dövləti və dünyada azadlığa layiq bir xalq olduğumuzu sübut etmiş oldu. Ulu Öndərin işləyib hazırladığı və möhtəşəm özülünü yaratdığı Müstəqil Azərbaycan, əbədiyaşar liderin mənəvi və siyasi varisi, xalqımızın qalib sərkərdəsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi sayəsində bizi qələbədən qələbəyə apardı, bütün sahələrdə yeni-yeni uğurlar qazanmağımıza səbəb oldu. 44 günlük möhtəşəm Vətən Müharibəsində və ondan sonra əldə edilən tarixi qələbələr, sonda Xankədinə Azərbaycanın Dövlət Bayrağının sancılması hər bir azərbaycanlı kimi təhsil işçilərinin də qəlbini riqqətə gətirmiş və öz işimizlə bu tarixi qələbəyə töhvə verməyə sövq etmişdir.

Azərbaycan Rerpublikasının prezidenti, cənab İlham Əliyevin dediyi kimi, xalqımıza bu möhtəşəm qələbəni bəxş edən Milli Ordumuzun yenilməz əsgərləri, məhz son iyirmi ildə yetişmiş nəslin nümayəndələridir. Bu isə o deməkdir ki, dövlətin gənclər siyasəti qüsursuz olmuşdur. Sözün həqiqi mənasında Vətənini, Dövlətini canından artıq sevən bu gənclər məhz Azad və Müstəqil Azərbaycan məktəblərində təhsil alan gənclərdir ki, bu da təhsilimizin keyfiyyəti haqqında xoş sözlər deməyə sövq verir. Bu baxımdan, mövcud vəziyyət Azərbaycanda təhsilin keyfiyyətinin aşağı olması haqqında səslənən bəzi dedi-qodu xarakterli fikirləri tamamilə alt-üst edir və gələcəyimizə nikbin baxmağa tam əsas verir. Ancaq bununla belə demək olmaz ki, təhsilimiz tamamilə qüsursuzdur və hər şey idealdır. Ölkəmizdə gedən əzəmətli yeniliklər müqabilində bu inkişafla ayaqlaşmağı prioritet hesab edən təhsil işçiləri nə qədər çalışsa da, yenə qusurlar qaçılmazdır və ən yaxşısı bu qüsurları görməzdən gəlmək deyil, onu görmək,mənbəyini tapmaq və aradan qaldırmağa çalışmaqdan ibarət olmalıdır.

Ancaq unutmaq olmaz ki, təhsi cəmiyyətin elə bir sahəsidir ki, orda məktəbdən, pedaqoji kollektivdən başqa həm də cəmiyyətin bütün təbəqələri bu və digər formada iştrak edir. Dünyagörüşündən, peşəsindən, siyasi və ictimai mövqeyindən, maddi durumundan asılı olmayaraq hər bir vətəndaş, hər bir fərd təhsil prosesinin iştirakçısıdır və bu iştrakçılığı ləyaqətlə yerinə yetirmək hər kəsin Vətən və Dövlət qarşısında müqəddəs borcu kimi qəbul edilməlidir. Çünki yetişən nəsil həm hər bir ailənin, həm ölkəmizin, həm də ümumən bəşəriyyətin gələcəyi deməkdir. Bu baxımdan yeni nəslin necə yetişməsindən həm hər bir ailənin, həm ölkəmizin, həm də dünyanın gələcəyi asılıdır desək, yanılmarıq. Təəssüf ki, bəzən bu müqəddəs borcu unudanlar, bu mühüm sahəyə laqeyd münasibət bəsləyənlər, bəzi hallarda isə fərqinə belə varmadan gənc nəslin təlim-tərbiyəsinə ciddi zərbələr vuranlar olur ki, bunun da ən böyük ağrısını məktəblər, pedaqoji kollektivlər çəkməyə məcbur olurlar. Bu sıradan ən vacib hesab edilən məsələrdən biri və bəlkə də birincisi məktəb və valideyn münasibətləri ilə bağlıdır. Həyatının qırx ilini pedaqoji fəaliyyətə məşğul olan, minlərlə gənc nəslin yetişməsində əmək sərf edən bir təhsil işçisi kimi, qətiyyətlə deyə bilərəm ki, bu gün məktəblərdə yaranan problemlərin mütləq əksəriyyəti məhz valideynlərlə, onların təhsil sahəsinə laqeydliyi və ya anti-pedaqoji müdaxiləsi ilə bağlıdır. Hesab edirəm ki, bu gün təhsildəki problemlər haqqında danışarkən təhsildə mühüm əhəmiyyətə malik olan bu sahəni daim diqqət mərkəzində saxlamaq gərəkdir.

Müəllimin cəmiyyətdəki nüfuzu gənc nəslin yetişməsində pedaqoji və psixoloji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bəzən valideynlər müəllimin nüfuzunun təlim-tərbiyə sektorundakı rolunu nəzərə almadan, onun haqqında uşaqlarına xoşagəlməz ifadələr işlədirsə, dolayısı ilə o öz övladının təlim-tərbiyəsinə ciddi zərər vurduğunu anlamalıdır. Axı müəllim də insandı, ola bilər ki, müəllim də hansısa məqamda səhv etdmiş olsun. Lakin bu məqamda valideyn övladının yanında həmin müəllimlə bağlı xoşagəlməz ifadələrdən istifadə edirsə, hələ şüuru tam yetkinləşməmiş həmin uşaqda müəllimə inamsızlıq yaranır və nəticə etibarilə uşaq həmin müəllimin tapşırıqlarını yerinə yetirməkdən bu və digər formada imtina edir. Bu isə şagirdin gələcəyi üçün ciddi qüsurlara gətirib çıxarır.Təbii ki, pedaqoji işçinin hansısa bir qüsurunu görüb, onu görməzdən gəlməyin də tərəfdarı deyilik. Hər bir valideyn müəllimin qüsuru kimi qəbul etdiyi hər hansı bir hərəkəti müəllimin özü və ya məktəbin rəhbərliyi ilə birgə müzakirə edə bilər və haqlı olduğu təqdirdə bu qüsurların aradan qaldırılmasında məktəbə yardım etmiş olar.Lakin bunu həmin müəllimin şagirdi olan övladının yanında etməməli və bu barədə övladına bildirməməlidir. Son nəticədə müəllimdə, əgər həqiqətən onun hansısa qüsurlu hərəkəti olubsa, onu aradan qaldırar, eyni zamanda şagird-müəllim arasında münasibət qorunub-saxlanmış olar.

Təcrübəli bir pedaqoq kimi bütün fəaliyyətim dövründə qarşılaşdığım bu cür problemlərdən nəticə çıxararaq demək istəyirəm ki, bu elementar məqamı gözləyən valideynlərin övladları cəmiyyətə daha layiqli vətəndaşlar kimi böyüyürlər, nəinki, yerli-yersiz övladını guya çox sevirmiş kimi, məktəblə, müəllimlə problemlər yaradan valideynlərin övladları.Ümumiyyətlə, bu gün təhsilimizin keyfiyyətinin daha da artırılması, gələcəyimiz olan gənclərin daha savadlı, daha vətənpərvər, daha layiqli böyümələri üçün məktəblərlə valideynlər arasında münasibətlərin qurulmasına xüsusi önəm verilməli, təlim-tərbiyə işində hər iki tərəf məsuliyyətini anlamalı və birlikdə fəaliyyət göstərməlidirlər.

***Elmira Novruzova***
***Xətai rayonu 265 saylı tam orta məktəbin müəllimi***

# Cənubi Qafqaz Qərbdən uzaqlaşır: 3+3 formatı nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*








**Tehranda keçirilən "3+3" formatında nazirlərin ilk görüşünün nəticələri və region dövlətlərinin problemlərini kənar oyunçular olmadan həll etməyə hazırlığı siyasi müşahidəçi Sergey Strokan "Moskva-Baku" portalı üçün təhlil edib. Analitikin fikirlərini oxucularımıza təqdim edirik.**

Uğurlu dövlətləri problemli ölkələrdən nəyin fərqləndirdiyi ilə bağlı davam edən müzakirələrdə siyasətçilər, diplomatlar və ekspertlər həmişə əsas suverenlik anlayışına qarşı çıxırlar.

Suverenlik bir ölkənin öz iqtisadiyyatını necə inkişaf etdirəcəyinə, kiminlə əlaqələr quracağına və öz təhlükəsizliyini təmin etmək missiyasını kimə həvalə edəcəyinə müstəqil qərar vermək qabiliyyəti və ya imkansızlığıdır. Bu, həm də bir ölkənin özünü necə müdafiə edə biləcəyi məsələsidir, o hansısa xarici qüvvəyə, qüdrətli gücə arxalanmağa üstünlük verir, yoxsa bunu özü həyata keçirir.

Bütün bu amillər bu gün Cənubi Qafqaz ölkələrinin hər biri- Ermənistan, Azərbaycan, Gürcüstan və onların qonşuları üçün uzun illər və onilliklər ərzində onların gələcək taleyini və inkişaf vektorunu müəyyən edən əsas məqamlardandır.

Bütün bunlar ötən həftə İranın paytaxtında "3+3" formatında nazirlərin ilk görüşündə müzakirə edilib. Rusiya, İran, Türkiyə, Azərbaycan və Ermənistan xarici işlər nazirliklərinin rəhbərləri Cənubi Qafqazın təhlükəsizliyi və inkişafı məsələlərini müstəqil şəkildə həll etməyə başlamaq üçün 2-ci Qarabağ müharibəsindən bəri ən ciddi cəhd göstərdilər. Yəni, "3+3" formatının iştirakçılarının fikrincə, regiondan kənarda olan və ümumi maraqlardan uzaq olan dövlətlər öz iradəsini Cənubi Qafqaza sırımamalı, onu öz oyunlarına cəlb etməməlidirlər.

Sözün düzü, orada 6 yox, 5 iştirakçı var idi. Tehrana dəvət edilən Gürcüstan bunu müzakirə etməkdən imtina edib. Bununla belə, nə olursa-olsun, regional inteqrasiya prosesi başlayıb və bunu region üçün ilin əsas hadisələrindən biri hesab etmək olar.

Ədalət naminə etiraf etmək lazımdır ki, iki üçlük formatında regional əməkdaşlıq mexanizmi, zahirən çox uduşlu və cəlbedici görünsə də, özünü dərhal təsdiq etmədi, bu, yavaş və çətin məsələ oldu.

Xatırladaq ki, bu təşəbbüs 2020-ci il noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanat imzalaması ilə nəticələnən 2-ci Qarabağ müharibəsi başa çatdıqdan sonra Ankara və Bakı tərəfindən irəli sürülüb. Moskvanın fəal şəkildə dəstəklədiyi altıtərəfli platformanın ideyası üç Zaqafqaziya respublikasını regionda ən böyük təsirə malik olan 3 güclü dövlətlə (Rusiya, Türkiyə, İran) birləşdirməyə qadir inteqrasiya platforması əldə etmək idi.

Güman edilirdi ki, yeni format nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını sürətləndirəcək, daha sıx əməkdaşlığa kömək edəcək və ən əsası regionun problemlərini regiondankənar oyunçuları cəlb etmədən region dövlətlərinin özlərinin həll etməyinə imkan verəcək.

Lakin cəlbedici ideya öz yolunu çətinliklə tapdı. Tehranda keçirilən ilk nazirlər görüşünə qədər Cənubi Qafqaz üçün altıtərəfli format fəaliyyətsiz qaldı və bunun bir neçə səbəbi var idi.

Əsas olanlar "altılıq" üzvlərinin özləri arasında çoxsaylı fikir ayrılıqları və gərginliklər idi və kənar oyunçular bu fikir ayrılıqlarında fəal şəkildə oynamağa başladılar.

Bu günə qədər sülh müqaviləsinin imzalanma şərtlərini razılaşdıra bilməyən İrəvanla Bakı arasında münasibətlərdə davam edən gərginlik İranla Azərbaycan arasında münasibətlərin kəskinləşməsi ilə üst-üstə düşdü ki, bu da ideyaların həyata keçirilməsində aşkar tormoz oldu. Bakı ilə Tehran arasında münasibətlər bu ilin yanvarında, İranın paytaxtında Azərbaycan səfirliyinə silahlı hücumdan sonra ən aşağı həddə çatıb.

Bu arada, son həftələrdə bölgədə dramatik dəyişikliklər baş verdi və hər kəsə aydın oldu: təcili bir araya gəlmək lazımdır, görüşü daha təxirə salmaq olmaz.

Əsas dəyişiklik qondarma "DQR"in separatçı quruluşu darmadağın edildikdən sonra Bakının Qarabağ iqtisadi rayonu üzərində tam inzibati nəzarəti bərqərar etməsi oldu. Xankəndi səmasında Azərbaycan Respublikasının bayrağını prezident İlham Əliyev şəxsən qaldırdı.

Əgər Tehran görüşün ab-havasını əvvəlcədən müəyyən edən və bunu mümkün edən digər dəyişikliklərdən danışsaq, o zaman İranla Azərbaycan arasında münasibətlərdə ciddi istiləşməni qeyd etməyə bilmərik. Bu, ilkin olaraq Tehranın şəfaətinə ümid edərək Bakı ilə uzunmüddətli qarşıdurmaya arxalanan İrəvan üçün heç də yaxşı xəbər deyildi.

Bundan sonra, artıq İran kartını Azərbaycana qarşı oynamaq mümkün olmayacaq. Oktyabrın əvvəlində Azərbaycan Prezidentinin köməkçisi Xələf Xələfov Tehrana səfər edib və İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan ilə görüşüb. Bundan az sonra tərəflər Azərbaycanın Tehrandakı səfirliyinin yaxın vaxtlarda fəaliyyətini bərpa edəcəyini və bu səfirliyin yaxın vaxtlarda fəaliyyətə başlayacağını bəyan ediblər.

Beləliklə, hətta bu qış münaqişə astanasında dayanan Tehran və Bakı qonşularına prinsipial praqmatik regional əməkdaşlıq nümunəsi nümayiş etdirdilər. Bununla belə, ən ciddi, dəmirlə örtülmüş arqumentlərdən biri yeni dəmir yolu ilə bağlı razılaşma idi.

"Altılıq"ın görüşü ərəfəsində Bakı və Tehran Azərbaycanın Naxçıvan Muxtar Respublikası və Şərqi Zəngəzur iqtisadi rayonu arasında İran ərazisindən keçəcək yeni dəmir yolu xəttinin tikintisinə dair niyyət protokolu imzalayıblar. Ermənistandan yan keçməklə. Bu müqavilə Bakının Zəngəzur dəhlizini öz ərazisindən keçməklə guya Ermənistanın suverenliyinə qəsd ediləcəyi barədə gülünc fərziyyələr səsləndirənlərin ayağının altından yeri qaçırtdı. Bundan başqa, enerji və yol tikintisi sahəsində layihələrin icrasına, Astara yük terminalının yaradılmasına da sürətlə başlanılıb.

Xarici oyunçuların iştirakı olmadan, yəni "3+3" formatında uzunmüddətli nizamlanma axtarışı getdikcə aktuallaşır, ona görə ki, ilkin ümidlər İrəvanla İrəvan arasında sülh müqaviləsinin tezliklə bağlanmasıdır. Danışıqlar nə qədər dalana dirənirsə, Qərb vasitəçiləri bir o qədər fəallaşırlar.

Beləliklə, Moskvadan başqa, başqa platformalar da göbələk kimi göyərməyə başladı - Praqa, Brüssel, Vaşinqton və nəhayət, prezident Əliyevin Fransa prezidenti Makronun qarşıdurma hücumlarından sonra getməkdən imtina etdiyi Qranada.

Diqqət yetirin- bu platformalar dırnaqarası "yaxşı və fərqli" olduqca İrəvanla Bakı arasında münasibətlər daha da gərginləşirdi. Bununla belə, trend idi.

Eyni zamanda, platformaların sayı artdıqca Ermənistan öz problemlərinə görə getdikcə daha çox Rusiyanı günahlandırmağa başladı. Bu, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun dəfələrlə dediyi kimi, xarici müdaxilənin nəticəsidir.

Bu vəziyyətdə Tehran görüşündə iştirak edənlər belə qənaətə gəliblər ki, istər Cənubi Qafqazdan, istər Yaxın Şərqdən, istərsə də başqa regiondan danışsaq, bütün regional münaqişələrin heyrətamiz davamlılığının əsas səbəbi gərginliyin, mübahisələrin və münaqişələrin yarandığı ərazilərə tələsən xarici oyunçuların müdaxiləsidir.

Vəziyyəti ağırlaşdırmaq üçün oynayan xarici qüvvələr öz iradələrini, oyun qaydalarını konkret region ölkələrinin üzərinə sırımağa, eyni zamanda onların arasında çəkişmələr yaratmağa çalışırlar. Neokolonial qablaşdırmada belə "parçala və hökm sür" siyasətinə misal olaraq Cənubi Qafqazı göstərmək olar.

Xatırladım ki, Tehrandakı görüşdən dərhal əvvəl Bakıda keçirilən beynəlxalq konfransda ciddiliyinə görə neokolonializm mövzusu müzakirə olundu. Bildirilib ki, Fransa kimi ölkələr özlərini demokratiyanın beşiyi hesab edərək uzun illərdir ki, beynəlxalq hüququn prinsiplərinə hörmətsizlik nümayiş etdirir, insan haqlarını kobud şəkildə pozur, xalqlar arasında sülhün əldə olunmasına əngəl törədirlər.

Bunu nəzərə alsaq, 3 aparıcı regional gücün- Rusiya, Türkiyə və İranın Cənubi Qafqazda strateji maraqları tam üst-üstə düşməsə də, xarici oyunçuların regional işlərə cəlb edilməsinin getdikcə real riski onları birləşməyə doğru sövq edir. Son hadisələr göstərir ki, Qərb regional ekspansiyasında Ermənistana arxalanıb. Bunu nəzərə alsaq, əsas sual ondan ibarətdir ki, region ölkələri "3+3" formatı hələ də Avroatlantik oriyentasiyadan vaz keçmək niyyətində olmayan İrəvan üçün kifayət qədər cəlbedici edə biləcəkmi?

Tehrandakı görüşün sonunda Rusiyanın xarici işlər naziri Sergey Lavrov qeyd edib ki, o, uzunmüddətli sülhün bağlanması üçün heç bir maneə görmür, çünki Bakı ilə İrəvan arasında münaqişə nizamlanıb. Beləliklə, bu gün Ermənistan və Azərbaycan arasında uzunmüddətli nizamlanmaya dair gələcək razılaşmalar üçün ilkin şərtlərin yaradılmasından danışmağa bütün əsaslar var. Cənubi Qafqazda sülhə ehtiyacı olmayan o neokolonial qüvvələr yenidən müdaxilə etmədikcə bu razılaşmalar əldə olunacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

1 noyabr
2023-cü il

# Qəzalı binaların sökülməsi əmlak bazarına necə təsir edir?

## *EKSPERT AÇIQLADI*

**“2016-cı ildən başlayaraq Nazirlər Kabinetinin 86 saylı sərəncamı ilə istismar müddətini bitirmiş və qəzalı vəziyyətdə olan binaların sökülməsi prosesi gedir. Bugünədək onlarla qəzalı vəziyyətdə olan binalar sökülərək yeni tikili binalarla əvəzlənib. Proses hələ də davam edir”. Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyev deyib.**





Onun sözlərinə görə, hər bir köhnə çoxmənzilli qəzalı vəziyyətdə olan bina sökülərkən vətəndaşlara, onlar yeni mənzillə təmin olunanadək kirayə pulu verilir: ”Köç və digər xərclər tikinti şirkətləri tərəfindən qarşılanır. Bundan əlavə vətəndaşların sökülmüş mənzillərinin yerində tikilmiş yeni binada onlara tam təmirli mənzil təqdim olunur ki, onun bazar dəyəri vətəndaşın köhnə mənzilindən təqribən iki dəfə baha olur. Söküntü prosesinin sürətlənməsi kirayə bazarında da qiymət artımına gətirib çıxarır”.

Ekspert sözlərinə davam edərək bildirib ki, bu başqa bir tərəfdən artıq kirayə bazarında ucuz mənzillərin qıtlığına səbəb olur: ”Yeni, ucuz mənzillər daha çox köhnə yaşayış binalarında olur. Bu binalar da mərhələli şəkildə söküldükcə oradakı mənzillər kirayə bazarından çıxmış olur. Onların yerində tikilmiş yeni binalarda isə kirayəlik və satış mənzillərinin bazar dəyəri əvvəlkindən daha baha qiymətə təklif olunur. Eyni zamanda, paytaxtın estetik gözəlliyi öz formasını alır. Yeni binalar tikildikcə onların çıxarışla təmin olunması prosesi daha sürətlə baş verir ki, bu da ipoteka və digər kreditlərlə mənzil almaq istəyən şəxslər üçün daha əlverişlidir. Çıxarışlı mənzillərin sayının artması xarici vətəndaşlarının da Azərbaycanın daşınmaz əmlak sektoruna yatırım etmələrinə səbəb olur”.

***Ləman Sərraf***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Selektiv abortu nə üçün məhz problem kimi qiymətləndiririk?

“Selektiv abort günümüzdə Qafqaz ölkələrində, Cənubi və Şərqi Asiyada kifayət qədər aktual bir problemə çevrilib. Selektiv abortu nə üçün məhz problem kimi qiymətləndiririk? Çünki bu formada həyata keçirilən abortlar gələcəkdə gender balansının pozulmasına, demoqrafik problemlərə və yeni nəslin psixoloji və sosial sahələrdə boşluqlarının yaranmasına gətirib çıxardacaq”. Bu sözləri SİA-ya açıqlamasında sosial məsələlər üzrə ekspert İlkin Hüseynov deyib.



Onun sözlərinə görə, ailələrin oğlan uşaqlarına üstünlük verməsi, ”nəslin davamçısı” məntiqi ilə qız uşaqlarının abort edilməsi haradasa cinayət statusuna uyğun bir addımdır: ”Çünki Azərbaycanda dölün abort olunması qanunla yalnız ilk 12 həftədə mümkündür. Təsadüfi hal deyil ki, uşağın cinsinin öyrənilməsi isə 12-ci həftədə mümkündür. Deməli, günümüzdə Azərbaycanda selektiv abort qeyri-yolla edilir”.

İlkin Hüseynov sözlərinə belə davam edib: ”Mənim fikrimcə, bu gün selektiv abortların aradan qaldırılması üçün həm lokal, həm də beynəlxalq təşkilatlar qadınlar və kişilər üçün çoxşaxəli maarifləndirmə işləri aparmalıdır. Bu maarifləndirmə tədbirləri selektiv abortlarla yanaşı, ümumilikdə abort prosesinin nə qədər təhlükəli olduğuni öyrətməlidir. Həmçinin, günümüzdə media qurumları müxtəlif sahələrdə olan xanım liderləri önə çəkərək, heç də kişilərdən geri qalmadıqlarını insanların alt şüuruna möhkəmləndirməlidir.

Qəbul etmək lazımdır ki, bu problem heç bir zaman sıfıra enməyəcək. Lakin, cəmiyyətimiz bunu minimuma endirə bilər. Bir daha vurğulayıram, bu cür düşüncə məhz cahilliyin əlamətidir. Cəhalət də yalnız elm, savad və maarifləndirmə ilə aradan qalxa bilər”.

***A. Vəli***

# “Dağılan ailələrin boşanma səbəblərində üçüncü əlin rolu danılmazdır”

## *SOSİOLOQ MÜNASİBƏT BİLDİRDİ*

“Ölkə üzrə dağılan ailələrin boşanma səbəblərində üçüncü əlin rolu danılmazdır. Üçüncü əl rolunda isə çox zaman qayınana çıxış edir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Fatimə Hacıbəyli deyib. Onun sözlərinə görə, gəlin və qayınana eyni evdə yaşayırlarsa, problem daha qabarıq şəkildə özünü göstərir: ”Bununla yanaşı, gəlin və qayınananın birlikdə yaşamadığı vəziyyətlərdə də tərəflər arasında problemlər yaşanmaqdadır. Bir çox hallarda bu problemlərin mərkəz nöqtəsi evin idarə edilməsi, qarşılıqlı ünsiyyət məsələləri sayılır. Gəlinlər qayınanalardan, qayınanalar isə gəlinlərdən şikayətçidir”.



Fatimə Hacıbəyli sözlərinə belə davam edib: ”Bəzi gənclər ya iş tapa bilmirlər, ya da işləmək istəmirlər. Bununla da onlar müstəqil deyil, maddi və mənəvi cəhətdən qayınana və qayınatadan asılı olurlar. Qayınana isə gərək demokratik, sivilizasiyalı, humanist insan olsun ki, oğlu və gəlininin çətinliklərini üzə vurmasın. Belə qayınanalar həqiqətən var. Amma ağıllı olmayanlar da var və onlar bəhanələrlə yeni evlənən gənclərin həyatına qarışırlar.

Gənc ailələrə bir az sərbəstlik vermək lazımdır. Gəlin-qayınana problemləri dərhal yaranmır, bu gərginliklər günbəgün yığılır və birdən özünü büruzə verir. Gənclərə doğru istiqamət verilməlidir. Çətin vaxtlarında onlara maddi və mənəvi dəstək olmaq lazımdır. Ancaq onların istəklərini məhdudlaşdırmaq olmaz”.

***Ayşən***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**